

Milli azadlıqdan şirin nemət yoxdur!

# Zəfərə 24 gün qalırdı...

## Vətən müharibəsinin 20-ci günü


İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet

6:21 PM · Oct 16, 2020 · Twitter for iPhone

Bax səh. 2

# Avropa İttifaqı neytrallıq saxlamalıdır!



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
16 oktyabr 2024-cü il, çərşənbə
№ 190 (6776)
Qiyməti 60 qəpik

# Heydər Əliyev Fondu - ICESCO əməkdaşlığı yeni inkişaf mərhələsində

Bax səh. 3



# "Torpaq icarəsi haqqında" Qanuna dəyişiklikləri kim və niyə təhrif etməyə çalışır?

Bax səh. 4

## Davam edən mina terroru...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terror hələ də davam edir. Belə ki, oktyabrın 14-də Qazax rayonunun Quşçu Ayrım kəndi ərazisində mina partlayışı hadisəsi baş verib. Azərbaycanın Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatında bildirilib ki, kənd sakini 2001-ci il təvəllüdlü Sarıyev İlkin Amil oğlu heyvan otararkən minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hadisə nəticəsində Sarıyev İlkin sağ ayağından xəsarət alıb. Xəsarət alan şəxs rayon xəstəxanasına çatdırılıb. Vəziyyəti stabildir.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yeri müayinə olunub və digər zəruri prosessual hərəkətlər icra edilib. Faktla bağlı Qazax rayon prokurorluğunda araşdırma aparılır. ANAMA, Daxili İşlər Nazirliyi və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırıb.

**Ombudsman: Beynəlxalq ictimaiyyət sərt reaksiya verməlidir**

Mina partlayışı hadisəsi ilə bağlı Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva da açıqlama verib. O bildirib ki, Ermənistan tərəfindən torpaqlarımızda basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyat və sağlamlığına ciddi təhlükə yaratmaqda davam edir. İkinci Qarabağ müharibəsindən bu günədək 380-dən çox şəxs mina qurbanı olub və bu acı statistika davam etməkdədir. Ombudsman deyib: "Ermənistan tərəfindən ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsi insanların yaşamaq...

Bax səh. 3

# Qərbin yeni planı - Ermənistan qorxulu oyuna sürüklənir...



Bax səh. 6

# 22 ölkədən 400-ə yaxın şirkət...

Bax səh. 5

# Zaman tələb edən proses...

Bax səh. 5

# "Berlin prosesi"...

Bax səh. 7

## Martinika xalqı Parisə etiraz edir

Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını ən ağır təzahürlər kimi adiləşdirərək dövlət siyasətinə çevirib. Özünü demokratiya və insan hüquqlarının təminatçısı kimi bəyan edən Paris neokolonializmi davam etdirməklə dünyada ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə məhəl qoymur.

**BMT Fransadan tələb etsə də...**

Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib. Yerli xalqlar iqtisadi, siyasi və mədəni təzyiqə məruz qalıblar. Belə ərazilərdən biri də Martinikadir. Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Bakıda keçirilən beynəlxalq konfranslarda dəfələrlə bu məsələyə toxunulub. Ən dəhşətlisi odur ki, fransızların tətbiq etdikləri zəhərli maddələr nəticəsində Martinikada əhalinin xeyli hissəsi zəhərlənib. Fransa bu məsələ ilə bağlı həkimlərə belə danışmağa icazə verməyib. Zəhərli olmasına rəğmən Fransa tərəfindən Martinikada kənd təsərrüfatı sahəsində hələ də xloredkon istifadə edilir. Nəticədə Martinikanın torpaqları uzun illərdi zəhərlənib və xərçəng göstəriciləri dünyada ən yüksəkdir.

Bu gün Fransa Martinika xalqının öz müqəddəratını təyin etmə hüququnu tam təmin etmədiyinə görə BMT Nizamnaməsinin maddələrini pozur. Məsələn, BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa Martinika xalqına daha geniş özünüidarə və ya müstəqillik hüququ verməlidir. BMT-nin 1514 saylı qətnaməsinə uyğun olaraq...

Bax səh. 7

# Yeni növ təxribatın köhnə ünvanı...



Bax səh. 5

# "Sülh qovşağı" burulğanında...



Bax səh. 6

# Sərgi Qarabağın dirçəlişində və dayanıqlı inkişafında mühüm fürsətlər yaradacaq

## “Xəzər İnşaat Həftəsi” çərçivəsində keçirilən 4-cü Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” - “Rebuild Karabakh” sərgisinin iştirakçılarına



Hörmətli sərgi iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi “Xəzər İnşaat Həftəsi” çərçivəsində keçirilən 4-cü Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” - “Rebuild Karabakh” sərgisinin açılışı münasibətilə salamlayıram.

İlk dəfə 2003-cü ildə təşkil olunan “Xəzər İnşaat Həftəsi” tikinti və infrastruktur sahəsində nüfuzlu tədbirlərdən birinə çevrilib. Burada dünyanın müxtəlif ölkələrinə məxsus şirkətlər regionun biznes imkanları ilə tanış olur və yeni əməkdaşlıq fürsəti qazanırlar. Bu il dayanıqlı və ekoloji təmiz tikinti texnologiyalarının tətbiqi ilə bağlı keçirilən müzakirələr və təqdimatlar tədbirin beynəlxalq əhəmiyyətini daha da artırır.

“Xəzər İnşaat Həftəsi” çərçivəsində keçirilən “Rebuild Karabakh” sərgisi işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması baxımından xüsusi əhəmiyyət kəsb edir. Hər il keçirilən bu sərgidə müxtəlif layihələr nümayiş etdirilir, Qarabağın bərpasına və yenidən qurulmasına dair təşəbbüslər müzakirə olunur.

Builki sərgi məzmun və iştirakçılar baxımından yeniliklərlə zəngindir. Sərgi “Yaşıl dünya naminə həmrəylik ili” və COP29 beynəlxalq tədbiri ilə eyni dövrə təsadüf edir. “Rebuild Karabakh” sərgisi bu mötəbər tədbirlə ortaq məqsədə, yəni dayanıqlı inkişaf naminə əməkdaşlığa yönəlib. Sərgidə təqdim olunan ekspozisiyalar və müzakirə mövzuları bərpa-quruculuq işlərini, həmrəyliyi və ekoloji davamlılığı nəzərdə tutur.

Sərgidə dövlət və özəl sektorun birgə iştirakı yeni layihələrin həyata keçirilməsi, eləcə də biznes imkanlarının daha da artması üçün mühüm perspektivlər açır. Sərgi zamanı qurulan əməkdaşlıq və aparılan müzakirələr Qarabağda bərpa ilə bağlı uğurlu təcrübənin daha geniş miqyasda tanıdılmasında əhəmiyyətli addım olacaqdır.

Sizi sərginin bütün istiqamətləri ilə yaxından tanış olmağa, yeni ideyalar və əməkdaşlıqla bağlı fikir mübadiləsi aparmağa dəvət edirəm. Əminəm ki, bu sərgi daha faydalı iş birliyi əsasında Qarabağın dirçəlişində və dayanıqlı inkişafında mühüm fürsətlər yaradacaqdır.

Hər birinizə bu sərgidə uğurlar arzulayıram!

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 14 oktyabr 2024-cü il***

# Zəfərə 24 gün qalırdı...



İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

6:21 PM · Oct 16, 2020 · Twitter for iPhone

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 20-ci günü**
**16.10.2020**

• Rəşadətli Azərbaycan Ordusu Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində məlumat verib.

• Prezident İlham Əliyev Türkiyənin “A Haber” televiziya kanalına müsahibə verib.

• Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 “Qrad” YARS qurğusu, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 “Şilka” özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş səkkiz avtomobil texnikası məhv edilib. Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi fərarilik halı qeydə alınıb. Ermənistan ordusunun 5-ci dağatıcı alayının müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan olub. Geri çəkilən düşmən xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə ataraq qaçıb. Bundan başqa, 9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib.

• Müdafiə Nazirliyi işğaldan azad olunan Hadrut qəsəbəsinin və Xocavənd rayonunun kəndlərinin videogörüntülərini paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 16-sı saat 11:00-dək 47 mülki şəxs həlak olub, 222 nəfər xəsarət alıb, 1669 ev, 84 çoxmənzilli yaşayış binası və 301 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

# Avropa İttifaqı neytrallıq saxlamalıdır!

## Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı qurum ilə əməkdaşlıqda geriləmə olarsa...

*P.İSMAYILOV*

Beynəlxalq münasibətlər sisteminin aparıcı regional aktorlarından sayılan Azərbaycan dövlət siyasətini hüququn aliliyinin təmini, ədalətin bərqərar olması və əməkdaşlığın gücləndirilməsi kimi bəşəri amillərin üzərində qurur. 44 günlük Vətən müharibəsində qalib tərəf olmasına baxmayaraq postmüharibə dövründə davamlı sülhün yaranması üçün ilkin təşəbbüs də Azərbaycandan gəlib. 2022-ci ildə sülh prosesinin ilkin aktiv müzakirələri zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması işində Avropa İttifaqı da bu və ya digər şəkildə vasitəçilik edirdi. “Brüssel formatı” adlanan bu görüşlər isə müəyyən nəticələrə yol açdı - sonradan müşahidə olunan qeyri-adekvat addımlar həmin müzakirələrin ikili və vasitəçisiz təmaslara transformasiya olunmasını zəruri etdi. Təbii ki, ortada mühüm məsələlər vardı - xüsusilə, sonradan Fransanın bu təmaslarda yer almağa can atması, Makron hakimiyyətinin danışıqlar prosesinə təsir göstərmək istəməsi formatın işinin yarımçıq dayandırılmasına səbəb oldu.

Prezident İlham Əliyev oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən bildirib ki, Brüssel Ermənistanla Azərbaycan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə danışıqların uğurla keçirildiyi bir məkan olub və həqiqətən orada mühüm irəliləyişə nail olunmuşdur. Lakin əfsuslar olsun ki, Ermənistan tərəfi Brüssel prosesi adlanan bu prosesi davam etdirməmək qərarına gəldi. Ancaq hər bir halda bu, çox yaxşı nəticə və təcrübə verən müsbət proses idi. Prezident İlham Əliyev qeyd edib ki, hazırkı şəraitdə daha çox diqqət ikitərəfli müstəviyə cəmlənib.

### Sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir

Hazırkı vəziyyətdə isə Ermənistan daha çox “sülh manipulyasiyası” ilə yadda qalır. Sirr deyil ki, İrəvan “yarımçıq”, razılaşdırılmamış müddəaların çıxarıldığı bir sənədi imzalamağa “hazır olduğunu” bildirir. Amma bu, Azərbaycanın sülh hədəfi deyil - Bakı bölgədə davamlı sabitliyin yaranması üçün arxasında heç bir sual olmayan sülhün imzalanmasının tərəfdarıdır. Başqa sözlə, razılaşdırılmamış və sonradan yeni “müzakirələrə” səbəb ola biləcək müddəaların yer almadığı sülh heç bir nəticə vəd edə bilməz.

Yeni səfirin etimadnaməsinin qəbul edilməsi mərasimində dövlətimizin başçısı vurğulayıb ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev bu baxımdan Ermənistan hökumətinin “bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın” təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirib və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğulayıb.

### Keçmiş Minsk qrupunun bəzi üzvləri Ermənistanın indiki qeyri-real təklifini dəstəkləyirlər...

Azərbaycan hər zaman sülhün və ədalətin tərəfindən çıxış edib - bizim üçün regional sabitliyin formalaşması vacib amillərdəndir. Bu nöqteyi - nəzərdən hətta işğala məruz qaldığı dövrlərdə belə ölkəmiz sülh çağırışları ilə yadda qalır, haqsızlığın aradan qaldırılmasını tələb edirdi. Təəssüfləndirici haldır ki, 30 ilə yaxın Ermənistanın apardığı işğal siyasətini susqunluqla müşahidə edən Qərb dünyası, “demokratik təsisatlar”, keçmiş “vasitəçi qruplar” bu gün də analoji münasibəti ortaya qoyurlar - Prezident İlham Əliyev bildirib ki, torpaqlarımızın işğalı dövründə dırnaqarası “Madrid prosesi prinsipləri” mövcud idi və bunun qarşılıqlı razılaşdırılmış əsas müddəalarından biri də o idi ki, bütün məsələlər razılaşdırılmadan heç nə razılaşdırıla bilməz. Bu, ozamankı ATƏT-in Minsk qrupu həmsədrlərinin, Ermənistanın və Azərbaycanın mövqeyi idi və biz bu mövqedə qalırıq. Əfsuslar olsun ki, keçmiş Minsk qrupunun bəzi üzvləri bununla bağlı öz mövqelərini dəyişdirdilər və Ermənistanın indiki qeyri-real təklifini dəstəkləyirlər.

Bu bir daha onu göstərir ki, Qərbin 30 ilə yaxın işğal faktının ortadan qalxmasına kömək etməməsinin arxasında xüsusi məqsədlər dayanıb. Bu gün həmin “məqsədlər” yenə də Ermənistanın “təklifi” ilə uzlaşdırılır. Bu yolverilməzdir. Necə ola bilir ki, hətta işğal vaxtı razılaşdırılmış müddəa bu gün fərqli şəkildə “ifadə edilir”? Deməli ki, bu sülhün imitasiyasıdır. Çünki Ermənistan tərəfi anlayır ki, Azərbaycan onların yarımçıq sülh təklifinə razı olmayacaq. Ermənistan Konstitusiyasında dəyişikliklər edilməyincə isə bu ölkə Azərbaycan torpaqlarına rəsmi iddiasını davam etdirmiş sayılır. Bu qəbuledilməzdir və bölgədə davamlı, əbədi sülhə imkan vermir - istisna edilmir ki, sabah Ermənistanda hansısa bir revanşist qüvvə bu konstitusiya preambulasına istinad edərək yenidən təcavüzə əl atmayacaq. Bu kimi iddiaları aradan qaldırmaq üçün isə sülhü hərtərəfli şəkildə özündə əks etdirən sənəd imzalanmalıdır.



### Avropa İttifaqının mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər...

Vurğulandığı kimi, 30 ilə yaxın müddətdə prosesi susqunluqla, gözləri və qulaqları bağlı şəkildə izləyən Avropa İttifaqının bu gün “aktivləşməsi” korporativ maraqlara əsaslanır. Azərbaycanın Fransanın sülh prosesinə müdaxiləsinə imkan verməməsinin ardından bu ölkə Aİ çətiri altında prosesə daxil olmağa çalışıb. Halbuki, 30 ilə yaxın elə “ATƏT-in Minsk Qrupu”nun həmsədri olan Fransa işğal faktına haqq qazandırmaq üçün yollar axtarırdı. Həmin vaxt məsuliyyəti bölüşməyən, məsələnin həllində aktivlik göstərməyən Avropa İttifaqı isə Minsk qrupunun tarixin tozlu küncünə göndərilməsinin ardından prosesə müdaxilə etməyə çalışır. Bəs niyə 30 ilə yaxın Aİ özünü prosesin tənzimlənməsindən kənarda saxlamışdı? Bu gün əvvəlki neytarallıq niyə saxlanılmır?

Dövlətimizin başçısı qəbul zamanı deyib ki, Avropa İttifaqı əvvəllər olduğu kimi, Ermənistan-Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır: “Lakin əfsuslar olsun ki, Brüsseldə, Avropa İttifaqının mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər. Bu, qeyri-məhsuldar bir mövqedir, yalnız etimadsızlıq yaradır və Avropa İttifaqını normallaşma prosesindən təcrid edir”.

Prezident vurğulayıb ki, əgər mümkündürsə, mən belə bir tövsiyə edərdim ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının davam etdirilməsi naminə Fransanın yolu ilə gedilməsin, özlərini Fransanın təsirinə salmasınlar. Çünki Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı siyasəti destruktiv siyasət olub və tamamilə bu cür də qalmaqdadır.

Bəli, Fransanın bu məsələdəki mövqeyi heç bir beynəlxalq qanuna, ədalət prinsipinə və hüquqa əsaslanmır. Özünün neokolonialist davranışlarını Cənubi Qafqaza proyeksiya etməyə çalışan Paris bölgənin gələcək atlasında təmsil olunmaq üçün can atır. Bu isə region dövlətlərinin maraqlarına zidd olduğu qədər yolverilməzdir - Azərbaycan heç bir zaman imkan verməz ki, Fransa və ya bir başqa dövlət bizim maraqlarımız üzərindən “dominatlıq” həvəsinə düşsün.

### Əməkdaşlıq geniş gündəliyə malikdir

Bütün bunlarla yanaşı, Azərbaycanın xarici siyasət kursu çoxvektorluğu ilə seçilir və qarşılıqlı əməkdaşlığa, milli maraqlara əsaslanır. Ölkəmiz bütün beynəlxalq təşkilatlarla əlaqələrin inkişafında maraqlıdır. Xüsusilə hazırkı həssas məqamda Azərbaycan mühüm bir coğrafiyada münbit iqtisadi şərait formalaşdırması ilə diqqəti cəlb etməkdədir - ölkəmizin coğrafi-tranzit imkanlarını, Şərq-Qərb ötürücülük qabiliyyətini önə sürməsi, qlobal münasibətlərin yeni mərhələsini yaratması, mühüm enerji dialoqu platforması formalaşdırması dəyərləndirilir. Təsadüfi deyil ki, son aylarda Avropanın bir sıra dövlətinin başçısı Bakıya səfər edib, ölkəmizin kontingentin enerji təhlükəsizliyinin təminatı məsələsindəki rolunu yüksək qiymətləndirib.

Aİ ilə Azərbaycan arasındakı münasibətlər çoxşaxəlidir - xüsusilə, enerji sektorunda Aİ ölkələrinin bəziləri Azərabycanı yaxın tərəfdaş kimi qəbul edir. Paralel olaraq müasir innovativ enerji dialoqu prosesinin aktuallığını da nəzərə alsaq, Bakının qitə üçün vaciblik indeksi günü-gündən yüksəlməkdədir. Qurumun Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasındakı qeyri-adekvat mövqeyi isə təəssüf doğurur. Prezident İlham Əliyev qəbulda bildirib ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı geniş gündəliyə malikdir və enerji, nəqliyyat, “yaşıl enerji”, ticarət sahələrini əhatə edir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Beləliklə, Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Dövlətimizin başçısı ümidvar olduğunu qeyd edib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək...

### “Binokl diplomatiyası”...

Avropa İttifaqının davranışları bir sıra hallarda Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsinə mane olur, hətta “anti - sülh” mahiyyəti əks etdirir. Məsələn, heç bir siyasi-ictimai mahiyyət daşımayan, sadəcə olaraq, regiona “nəzarət” üçün Ermənistana yerləşdirilən Aİ-nin “müşahidə missiyası”nın əsl “fəaliyyət mexanizmləri” hər kəsə bəllidir. Bu qrup monitorinq missiyası mahiyyətindən daha çox Ermənistanı sülhdən uzaqlaşdırmaq üçün təzyiq vasitəsi kimi istifadə olunur. Bu missiyanın “əsl siması” isə gündən-günə daha aydın şəkildə ortaya qoyulur. Onların müşahidəçidən çox kəşfiyyat xarakterli fəaliyyətlə məşğul olması müşahidə olunur. “Binokl diplomatiyası”nı özünün ən vacib hərəkət mexanizminə “çevirən” bu qrup ara-sıra xarici ölkələrin Ermənistandakı səfirlərini, İrəvanda qonaq olan amma sülh məsələsinə ən minimum aidiyyatı olmayan xarici nümayəndələri şərti sərhədə gətirir, onların Azərbaycan torpaqlarına “boylanan yerdə” şəkillərini çəkir paylaşır. Bunu isə həm də özünün missiyası sayır. Təəssüf ki, bu qrup heç bir monitorinqlə yadda qalmır - ermənilərin Azərbaycana qarşı son dövrlərdə əl atdığı hərbi təxribatlar haqqında bir kəlmə də olsun nə hesabatlarında qeyd edirlər, nə də bununla bağlı fikir bildirirlər.

Prezident İlham Əliyev onu da vurğulayıb ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə dırnaqarası “Avropa müşahidəçilər missiyasının” müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır. Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq verməmişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, “binokl diplomatiyası” heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Dövlətimizin başçısı bildirib ki, biz Avropa İttifaqı ilə təmaslarda bu məsələni qaldıracağıq.

Görünən budur ki, Aİ daha çox regionda distabilliyinin aradan qalxmaması, gərginliyin davam etməsi, sülhün əldə olunmaması üçün “addımlar” atır. Paralel olaraq Aİ-nin timsalında Fransa bu kimi hərbiləşdirilmiş “mülki missiya” oyunları ilə regionda qalmağı “planlaşdırır”.

# Heydər Əliyev Fondu - ICESCO əməkdaşlığı yeni inkişaf mərhələsində

Müstəqil Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda geniş coğrafiyanı əhatə edən İslam ölkələri ilə əməkdaşlığın genişləndirilməsi xətti xüsusi yer tutur. Ölkəmiz davamlı olaraq dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfələrini verir.

Əlamətdar haldır ki, bu sahədə dövlət siyasətinə bütövlükdə cəmiyyətdən, ictimai təşkilatlardan da güclü dəstək gəlir. O cümlədən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) arasında əməkdaşlıq əlaqələri getdikcə dərinləşir. Elə bu günlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olub. Oktyabrın 14-də ICESCO -nun baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan- ICESCO əməkdaşlığı, o cümlədən Fond ilə birgə layihələr müzakirə edilib.

## ICESCO-nun fəal üzvlərindən biri

Yer üzündə bərabərliyə, qardaşlığa, humanizmə çağırış edən İslam dininin mədəni irsi də kifayət qədər zəngindir. Bu irs əsrlər boyunca bəşəriyyətin tərəqqisində mühüm rol oynayıb və bu gün də özünün müstəsna əhəmiyyətini qoruyub saxlamaqdadır. İslam Təhsil, Elm və Mədəniyyət Təkilatının təsis edilməsi haqqında təşəbbüs isə İslam Əməkdaşlıq Təşkilatına (o zaman Islam Konfransı Təşkilatı) üzv dövlətlərin xarici işlər nazirlərinin Dakarda (Seneqal) keçirilmiş 9-cu Konfransında (24-28 aprel, 1978-ci il) irəli sürülüb.

İƏT-ə üzv dövlətlərin Məkkədə keçirilmiş 3-cü zirvə görüşündə (25-28 yanvar 1981-ci il) İslam dövlətlərinin təhsil, elm və mədəniyyət məsələləri üzrə birliyi olan ICESCO-nun təsis edilməsi və daimi qərargahının Rabat (Mərakeş) şəhərində yerləşdirilməsi qərara alınıb. ICESCO-nun təsis Konfransı 3 may 1982-ci ildə Mərakeş Kralı II Həsənin himayəsi ilə Krallığın Fəs şəhərində baş tutuv. 28 dövlətin təmsil olunduğu Konfransda mərakeşli ictimai-siyasi xadim Əbdül Hadi Butalib (1923-2009) ICESCO-nun ilk baş direktoru seçilib. O, 1982-1991-ci illərdə ICESCO-ya rəhbərlik edib.



Azərbaycan 1991-ci ildən bu gün sıralarında 50-dən çox dövləti birləşdirən ICESCO-nun üzvüdür. Əməkdaşlıq əlaqələrinin genişlənməsinə böyük önəm verən respublikamız indiyədək qurumun bir sıra mühüm tədbirlərinə uğurla ev sahibliyi edib. Bu sırada müxtəlif illərdə Bakıda keçirilmiş "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfransı (1-2 noyabr 2007-ci il), Heydər Əliyev Fondunun təşəbbüsü, "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forumu (10-11 iyun 2008-ci il), İslam ölkələri Elm və təhsil nazirlərinin VI Konfransını (6-7 oktyabr 2008-ci il), "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" Mədəniyyət ilinin açılış mərasimini (18 fevral 2009-cu il), İslam ölkələri Mədəniyyət nazirlərinin VI Konfransını (13-15 oktyabr 2009-cu il), Dünya dini liderlərinin Bakı sammitini (26-27 aprel 2010) və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarını xüsusilə qeyd edə bilərik.

## Heydər Əliyev Fondu ilə qurulan sıx münasibətlər

Öz növbəsində ICESCO dünyada İslam həmrəyliyinin güclənməsinə davamlı töhfələr verən Azərbaycana ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda apardığı haqq mübarizəsinə həmişə dəstəyini ifadə edib. Qurum işğal olunmuş ərazilərimizdə Azərbaycanın tarixi mədəni-dini irs abidələrinin ermənilər tərəfindən dağıdılmasını və təhqirlərə məruz qalmasını pisləyən sənədlər qəbul edib. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə ölkəmizlə qurum arasında əməkdaşlıq münasibətləri daha da dərinləşib. Azərbaycanın birinci xanımı bu ada təhsilin və sivilizasiyalar arasında dialoqun inkişafında göstərdiyi xidmətlərə görə layiq görülüb.

Yuxarıda bəhs olunan görüşdə Heydər Əliyev Fondu ilə ICESCO arasında sıx əlaqələr qurulmasından məmnunluq ifadə olunub. Təhsil, mədəniyyət, səhiyyənin inkişafı məsələlərini prioritet kimi qəbul edən Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər və reallaşdırdığı layihələr ICESCO-nun əsas fəaliyyət istiqamətləri ilə uzlaşdığından iki qurum bir çox sahədə əlaqələrini daha da genişləndirir. Cari ilin may ayında Şuşada Heydər Əliyev Fondu və ICESCO arasında mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutan əməkdaşlığa dair imzalanan memorandum da əlaqələrin genişləndirilməsi istiqamətində növbəti addım kimi dəyərləndirilə bilər. Şuşada Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin görüşündə ikitərəfli əməkdaşlıq, ICESCO ilə Fond arasında ötən müddət ərzində mövcud əlaqələr müzakirə edilib. Fondun prezidenti Mehriban Əliyevanın ICESCO-nun xoşməramlı səfiri kimi sivilizasiyaların yaxınlaşması, mədəniyyətlərarası dialoq üzrə fəaliyyəti və xidmətləri vurğulanıb.

Yeri gəlmişkən, Şuşa 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan olunub. Bu əlamətdar hadisə isə 2023-cü il 25 sentyabr tarixində Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında baş verib. Həmin konfransda ICESCO-nun İslam dünyasının mədəniyyət paytaxtı proqramına Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtına namizədliyini təqdim edib. Konfrans iştirakçılarının yekdil rəyi ilə Şuşa 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan olunub.



Qeyd edək ki, Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" adına namizədliyinin irəli sürülməsi məqsədilə ICESCO-nun müvafiq missiyası burada olub. Şəhərdə aparılan quruculuq işləri missiya tərəfindən yüksək qiymətləndirilib. Bundan əlavə, Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Şuşanın namizədliyinin irəli sürülməsi prosesinə yaxından dəstək göstərməsi səsvermənin ölkəmizin xeyrinə nəticələnməsində xüsusi rol oynayıb. Azərbaycan dövləti və cəmiyyəti İslam dünyasının bəhs olunan qərarını böyük məsuliyyət kimi qəbul edib. Prezident İlham Əliyev 21 noyabr 2023-cü il tarixində "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Həmin sənədə uyğun olaraq Şuşa ili çərçivəsində bir-birindən maraqlı tədbirlər keçirilib.

## COP29 çərçivəsində əməkdaşlıq

Hazırda dünyada iqlim çağırışlarının aktuallığı heç vaxt olmadığı qədər artıb. Bununla bağlı həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə ICESCO -nun baş direktoru Salim bin Məhəmməd əl-Malik arasında baş tutan görüşdə də müzakirələr aparılıb. O cümlədən noyabr ayında ölkəmizdə keçiriləcək COP29 çərçivəsində Fond və ICESCO arasındakı əməkdaşlıq, təşkilatın COP29-da pavilyonla təmsil olunması ilə bağlı məsələlər diqqət mərkəzində olub.

Görüşdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən ekoloji layihələr barədə də məlumat verilib. Ətraf mühitin qorunması sahəsində ICESCO ilə Heydər Əliyev Fondunun gələcək əməkdaşlığı nəzərdən keçirilib.

Daha sonra Heydər Əliyev Fondu ilə ICESCO arasında Burkina-Fasoda məcburi köçkün qızlar və internat evləri üçün təhsil və sosial dəstək layihəsi üzrə əməkdaşlıq sazişi imzalanıb. Sənədi Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik imzalayıblar. Layihənin məqsədi qız tələbələri lazımi resurslar, mentorluq və təhlükəsiz, dəstəkləyici mühitlə təmin etməkdir. Bu isə keyfiyyətli təhsilə çıxış, həyat bacarıqları təlimi və emosional dəstək, şəxsi inkişafı və dayanıqlığı təşviq etmək kimi məsələlərin həlli deməkdir. Layihə çərçivəsində seminarların təşkili, məktəblərdə kompüter siniflərinin və kitabxanaların yaradılması da nəzərdə tutulur. 2025-ci ilin oktyabr ayınadək davam edəcək layihə Burkina-Fasonun bir sıra şəhərlərini əhatə edəcək.

*Mübariz ABDULLAYEV*

# Varşavada Qərbi Azərbaycanla bağlı sərgi...



Oktyabrın 14-də Polşanın nüfuzlu ali təhsil ocaqlarından olan Varşava İqtisadiyyat Universitetində Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" adlı sərginin açılışı olub.

Bu barədə "Yeni Azərbaycan"a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

Bildirilib ki, Qərbi Azərbaycan mədəni irsi ilə bağlı Avropada ilk dəfə keçirilən sərginin açılışında Varşava İqtisadiyyat Universitetinin rektoru Piotr Vaxoviak rəhbəri olduğu ali məktəbdə belə bir sərginin keçirilməsindən məmnun olduğunu bildirib.

Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova çıxış edərək dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri kimi ölkəmizin minilliklər ərzində ərazisində yaradılmış zəngin mədəni irsə malik olduğunu bildirib. O qeyd edib ki, İrəvan xanlığı təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın tarixində mühüm rol oynayıb. Bu Azərbaycan dövləti XIX əsrin əvvəllərində ərazisinin regionun böyük dövlətləri arasında qanlı müharibələr teatrına çevrildiyi zaman öz müstəqilliyi uğrunda yadelli işğalçılara qarşı qəhrəmanlıqla mübarizə aparıb.

Səfir İrəvan xanlığının tarixi barədə ətraflı məlumat verərək xanlığın tarixinin Azərbaycan xalqının zəngin maddi və qeyri-maddi mədəniyyət tarixinin tərkib hissəsi olduğunu vurğulayıb. N.Qurbanova davam edib ki, xanlığın paytaxtı İrəvan şəhərinin adının orta əsr yazılı mənbələrində "Rəvan", "İrəvan", "İrivan" kimi çəkilib, şəhər 4 məhəllədən - Qala, Şəhər, Təpəbaşı və Dəmirbulaq yaşayış massivlərindən ibarət olub. Səfir İrəvan şəhəri və onun ətrafında hidronim və oykonimlərin mütləq əksəriyyətinin Azərbaycan dilində olmasının bu ərazinin azərbaycanlıların qədim yaşayış məskənlərindən olduğunu sübut etdiyini diqqətə çatdırıb.

O, avropalı səyyahların və salnaməçilərin, o cümlədən Jan Batist Tavernye, Jan Şarden, Dübua de Monper, Avqust fon Haksthauzen və digərlərinin əsərlərində İrəvan şəhərinin səciyyəvi müsəlman şəhəri kimi təsvir olunduğunu qeyd edib.

Səfir XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvanda Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa Xan və sair kimi çoxlu sayda Azərbaycan adına küçələrin mövcud olduğunu bildirib.

Diplomat XX əsrin əvvəllərinədək İrəvan qalası, onun daxilində yerləşən Xan Sarayı (Sərdar Sarayı) və Abbas Mirzə məscidinin şəhərin tarixi-memarlıq inciləri hesab olunduğunu diqqətə çatdırıb və Xan Sarayını tikdirən İrəvan sərdarları barədə məlumat verib. O, indiki Ermənistan ərazisində mövcud olmuş 3500 tarixi və mədəni abidə, 500 qəbiristanlıq və 391 məscidin Qərbi Azərbaycanın tarixi irsinin tərkib hissəsi olduğunu vurğulayıb və 1905-1906, 1918-1920, 1948-1953 və 1987-1988-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən deportasiya və qırğınların nəyinki azərbaycanlıların indiki Ermənistandan kütləvi surətdə köçürülməsi ilə nəticələndiyini, həm də minlərlə tarixi abidənin, məscidin yerlə-yeksan edildiyini təəssüflə diqqətə çatdırıb.



Səfirin sözlərinə görə, abidələri məhv etmək asan olsa da, tarixi ümumi yaddaşımızdan silmək mümkün deyil və öz soyunu Qərbi Azərbaycandan götürən azərbaycanlı gənclərin sərginin açılışında iştirakı bir daha sübut edir ki, gec-tez həqiqət üzə çıxır.

Qərbi Azərbaycan İcmasının İctimaiyyətlə əlaqələr və Qərbi Azərbaycan Televiziyası şöbəsinin müdiri - mətbuat katibi Ülviyyə Zülfiqar bildirib ki, Qərbi azərbaycanlılar ötən əsr ərzində bir neçə dəfə deportasiyaya məruz qalıb və nəticədə bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistanın Qərbi azərbaycanlıların zəngin mədəni irsinə ağır zərbələr vurduğunu, azərbaycanlıların yaşayış məntəqələrini xarabalığa çevirdiyini, əsrlərin sınağından keçmiş abidələri yerlə yeksan etdiyini deyən İcma rəsmisi Ermənistanda azərbaycanlılara məxsus 300-dən çox məscidin, yüzlərlə qəbiristanlığın məhv edildiyini bildirib. O, Göyçə aşıq məktəbinin tanınmış siması Aşıq Ələsgərin doğma kəndindəki qəbirüstü abidəsinin Ermənistan tərəfindən məhv edilməsi haqqında məlumat verərək, Azərbaycan Prezidenti İlham Əliyevin bir neçə gün əvvəl Bakıda Aşıq Ələsgərin abidəsinin açılışını həyata keçirməsini xalqımızın mətanətinin, mədəni dayanıqlığının və qayıdışa inamının simvolu olduğunu vurğulayıb. İcma rəsmisi mədəni irsə edilən hücumun həm də bütövlükdə bəşəriyyətə qarşı yönəldiyini qeyd edərək, beynəlxalq ictimaiyyəti İcmanın ədalət yolunda apardığı mübarizəyə dəstək verməyə çağırıb.

Qeyd edək ki, oktyabrın 25-dək davam edəcək sərgidə Qərbi Azərbaycanın zəngin irsini əks etdirən şəkillər, eksponatlar, kulinariya nümunələri əks edilib. İrəvan xanlığının bayrağının, Qərbi Azərbaycanlıların deportasiyasının, dağıdılmış məscidlərimizin, abidələrimizin, qəbiristanlıqlarımızın, Qərbi Azərbaycanın görkəmli şəxsiyyətlərinin fotolarının əks olunduğu sərgi iştirakçılar tərəfindən maraqla qarşılanıb, soydaşlarımızın başlarına gətirilən müsibətlər barədə onlara ətraflı məlumat verilib.

Tədbirdə, həmçinin Qərbi Azərbaycan mətbəxindən təamlar nümayiş olunub.

# Davam edən mina terroru...

### Vətən müharibəsi başa çatandan sonra 381 nəfər mina partlayışının qurbanı olub

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terror hələ də davam edir. Belə ki, oktyabrın 14-də Qazax rayonunun Quşçu Ayrım kəndi ərazisində mina partlayışı hadisəsi baş verib. Azərbaycanın Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatında bildirilib ki, kənd sakini 2001-ci il təvəllüdlü Sarıyev İlkin Amil oğlu heyvan otararkən minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hadisə nəticəsində Sarıyev İlkin sağ ayağından xəsarət alıb. Xəsarət alan şəxs rayon xəstəxanasına çatdırılıb. Vəziyyəti stabildir.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yeri müayinə olunub və digər zəruri prosessual hərəkətlər icra edilib. Faktla bağlı Qazax rayon prokurorluğunda araşdırma aparılır. ANAMA, Daxili İşlər Nazirliyi və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırıb.

## Ombudsman: Beynəlxalq ictimaiyyət sərt reaksiya verməlidir



Mina partlayışı hadisəsi ilə bağlı Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva da açıqlama verib. O bildirib ki, Ermənistan tərəfindən torpaqlarımızda basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyat və sağlamlığına ciddi təhlükə yaratmaqda davam edir. İkinci Qarabağ müharibəsindən bu günədək 380-dən çox şəxs mina qurbanı olub və bu acı statistika davam etməkdədir. Ombudsman deyib: "Ermənistan tərəfindən ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsi insanların yaşamaq və sağlamlıq hüququnu kobud şəkildə pozmaqla yanaşı, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıdışına, sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunmasına, eləcə də bölgədə həyata keçirilən bərpa-quruculuq işlərinə ciddi maneə yaradır. Bununla yanaşı, həmin minaların partlaması suyun və havanın çirklənməsi, torpaqların strukturunun pozulması, ümumilikdə, ekoloji böhranın yaranması ilə də nəticələnir. Beynəlxalq ictimaiyyət dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi istiqamətində Ermənistana ciddi təsir göstərməli, bu ölkənin mina terroruna səssiz qalmamalı, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməlidir".



## Ermənistanın imtina etməsi...

Azərbaycanın Xarici İşlər Nazirliyi də Qazaxda mina partlayışı nəticəsində 23 yaşlı şəxsin xəsarət almasına münasibət bildirib. Bu barədə nazirliyin "X" hesabında paylaşım edilib. Qeyd edilib ki, 2020-ci ildən ötən müddətdə 381 nəfər mina partlayışının qurbanı olub. Paylaşımda, həmçinin Ermənistan tərəfinin mina xəritələrini verməkdən imtina etməsinin adıçəkilən ölkənin sülh və münasibətlərin normallaşması prosesində iştirakı məsələsi ilə ziddiyyət təşkil etdiyi bildirilib. Vurğulanıb ki, beynəlxalq ictimaiyyət Ermənistanın minalardan istifadə etməklə Azərbaycana qarşı davam edən mina terroruna göz yummamalıdır.

Ümumiyyətlə, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda basdırmasının məqsədi də mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

## Dünya birliyindən fəal dəstək gözləyirik

Eyni zamanda, Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir. Doğrudur, Avropa İttifaqı və ABŞ bu məqsədlə müəyyən maliyyə dəstəyi ayırıb. Amma qeyd etdiyimiz kimi, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır. Onlar Ermənistan tərəfindən törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidir.

*Nardar BAYRAMLI*

# Dayanıqlı iqtisadi inkişafın göstəriciləri

## 2024-cü ilin ötən 3 rübü ərzində iqtisadiyyatda yüksək artım qeydə alınıb

Azərbaycan iqtisadiyyatı 2024-cü ilin ötən 3 rübü ərzində yüksək artım templəri nümayiş etdirərək dayanıqlı inkişafını daha da möhkəmləndirib. Belə ki, 2024-cü ilin yanvar-sentyabr aylarında ölkəmizdə 92 milyard 829,5 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz çox əlavə dəyər deməkdir. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,9 faiz, qeyri-neft-qaz sektorunda isə 7,1 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 9102,9 manata bərabər olub.

Ötən 9 ayın makroiqtisadi göstəriciləri bir daha təsdiqləyir ki, Azərbaycan iqtisadiyyatı üçün neft-qaz gəlirləri əhəmiyyətli mənbə olsa da, son dövrlərdə xüsusi artım nümayiş etdirən qeyri-neft sektorundakı mənbələr, o cümlədən qeyri-neft sənayesinin dayanıqlı inkişafı iqtisadi artımın neftə deyil, qeyri-neft sahələrinə əsaslandığını göstərir. ÜDM-in nominal artımı neft-qaz sahələrindəki əlavə dəyəri bir neçə dəfə üstələyir ki, bu da Azərbaycanıda əlavə dəyərin baza sütununun enerji sektoruna deyil, iqtisadi inkişafın əsas ağırlıq yükü və dayanıqlı sütunları olan qeyri-neft sektoruna söykəndiyini nümayiş etdirir.

### Sənayenin payı ÜDM-in 50 faizindən də çoxdur

Ölkədə yaradılan əlavə dəyərin strukturunda sənaye sektoru yenə də aparıcı yer tutmaqdadır. Belə ki, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin ötən 9 ayı ərzində 47,8 milyard manatlıq sənaye məhsulu istehsal edilib və ÜDM-in strukturunda sənaye məhsullarının payı ötən illərlə müqayisədə daha da yüksəlib. Neft-qaz sənayesində məhsul istehsalı eyni səviyyədə qalsa da, qeyri-neft sənayesində 8,7 faiz artım qeydə alınıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin “Araz “Araz Vadisi İqtisadi Zonası”nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir.




2024-cü ilin yanvar-avqust aylarında Azərbaycan xarici ticarət tərəfdaşlarının sayı və xarici ticarət dövriyyəsinin həcmi də artıb. Qeyd edlən dövrdə 172 ölkə ilə əməə mübadiləsi həyata keçirilib, 117 ölkəyə məhsul ixrac, 161 ölkəyə isə idxal olunub.

### Xarici ticarətdə 4,7 milyard dollar müsbət saldo qeydə alınıb

Ölkəmizin xarici ticarət dövriyyəsinin həcmi 30,2 milyard dollar təşkil edib ki, onun da 17,5 milyard dolları ixracın payına düşür. İdxalın dəyəri isə 12,7 milyard dollar olub və nəticədə xarici ticarətdə 4,7 milyard dollar məbləğində müsbət saldo yaranıb.

Azərbaycanın xarici ticarət dövriyyəsinin 22,5 faizi İtaliya, 13,5 faizi Türkiyə, 9,5 faizi Rusiya, 7,4 faizi Çin, 4,5 faizi İsrail, 3,2 faizi Almaniya, 2,9 faizi Avstraliya, 2,6 faizi Hindistan, hər biri 2,5 faiz olmaqla Çexiya və ABŞ, 2 faizi Xorvatiya, 1,9 faizi Birləşmiş Krallıq, hər biri 1,4 faiz olmaqla Yunanıstan və Portuqaliyanın payına düşüb. Mal mübadiləsində 1 faiz paya malik olmaqla digər ölkələr Bolqarıstan, Gürcüstan, İran, Rumıniya, Ukrayna, Belarus, İsveçrə və Türkmənistan yer alır.

İxracda əsas məhsullar neft-qaz və ondan hazırlanmış məhsullar üstünlük təşkil etsə də, qeyri-neftin ixracında artımlar müşahidə edilməkdədir. Qeyri-neft məhsullarının ixracı 2 milyard dollara yaxın olub. İxracda əsas mallar tərəvəz və meyvə məhsulları üstünlük təşkil edir. Xüsusilə də pambıq və pambıq lifi, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, kimyəvi mallar və sənaye texnologiyaları, elektrik enerjisi, kosmik sənaye məhsullarının ixracı davamlı artmaqdadır.

### İnvestisiya qoyuluşları 13 milyard manata yaxınlaşıb...

2024-cü ilin yanvar-sentyabr aylarında investisiya fəallığı da yüksəlib, əsas kapitala 12,7 milyard manatdan çox kapital yatırılıb. İnvestisiyanın 6,3 milyard manatı və ya 50 faizi istehsalı sahələrinə, 4,7 milyard manatı (37 faiz) xidmət sahələrinə, 1,7 milyard manatı (13 faizi) isə tikinti sektoruna sərf olunub. Sərmayələrin 10,5 milyard manatını daxili investisiyalar təşkil edib, xarici sərmayələrin həcmi isə 2,2 milyard manata bərabər olub. Əsas kapitala yönəldilmiş xarici investisiyaların əsas hissəsi qeyri-neft bölmələrində müxtəlif layihələri, o cümlədən, “yaşıl enerji” sektorunu əhatə edir.

Göründüyü kimi, hazırda ölkə iqtisadiyyatında investisiya axıcılığı yüksələn xətlə davam edir və aylıq sərmayələrin həcmi 1,4 milyard manatdan çoxdur. Bu dinamika ilin sonunda sərmayə qoyuluşlarının həcminin 16 milyard manatı ötəcəyini deməyə əsas verir. Nəzərə alsaq ki, sərmayə portfelində xərclərin böyük bir hissəsi, təxminən 70 faizi tikinti-quraşdırma işlərinə sərf olunur və 2024-cü ilin dövlət büdcəsində aparılan dürüstləşmələrdən sonra işğaldan azad edilmiş ərazilərə yönələn vəsaitlərin həcmi 2,2 milyard manat artıb ki, bu amil də tikinti-bərpa işlərinin böyüməsi fonunda sərmayələrin daha da artacağına dəlalət edir. Eləcə də xarici biznes fəaliyyəti üçün daha əlverişli sərmayə iqliminin təmin edilməsi, investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılmasına dair xarici ölkələrlə imzalanan sazişlərin sayının artması investisiyaların böyüməsini stimullaşdırır. Proqnozlara görə, 2024-cü ilin yekununda cəmi investisiyaların həcmi 18 milyard manata çatacaq.




### Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb...

Ölkə iqtisadiyyatının inkişafı, müxtəlif sektorlarda, xüsusilə də qeyri-neft sahələrində işgüzar fəallığın artmasına əhalinin gəlir əldəetmə imkanlarının da yaxşılaşmasına səbəb olub. 2024-cü ilin ötən 9 ayı ərzində əhalinin iş fəallığı artıb və iqtisadiyyatda muzdla çalışan işçilərin sayı 1 milyon 755 min nəfər olub. Onların 878,3 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 877 min nəfərə yaxını isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 997,1 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Bu dövrdə əhalinin nominal gəlirləri isə 6,1 faiz artaraq 53 milyard 947,2 milyon manat və ya hər nəfərə orta hesabla 5291,6 manat olub. Əhalinin sərəncamında qalan gəlirləri 47 milyard 488,1 milyon manat təşkil edib.

Əhalinin gəlirlərinin artım tempi inflyasiya göstəricisini təxminən 4 dəfə üstələyib. Belə ki, 2024-cü ilin yanvar-sentyabr aylarında inflyasiya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,5 faiz təşkil edib. Nəticədə həm əhalinin orta aylıq əməkhaqqı, həm də real gəlirləri inflyasiyanı üstələməklə onların sosial rifah vəziyyətinə müsbət təsir edib.

### Ortamüddətli hədəf: Qeyri-neft sektorunun ÜDM-də payı 78 faizə çatdırılacaq

Hökumətin yürütdüyü siyasətə əsasən, qarşıdakı dövrdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas çağırışlardan biri olacaq. Ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır və milli istehsalın təmin edilməsi əsas iqtisadi niyyət kimi daha da gücləndiriləcək. Bu siyasət növbəti illər üçün əsas çağırış olmaqla, iqtisadi imkanların daha da səfərbər edilməsinə yönəldiləcək. Nəticədə iqtisadi inkişafın birbaşa qeyri-neft sütunları üzərində dayanıqlılığının daha da artacağı ehtimal olunur.

Proqnozlara əsasən 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcəyi, 2028-ci ildə isə ÜDM-in 150,8 milyard manata qədər, o cümlədən qeyri-neft ÜDM-in həcmi 117,2 milyard manata qədər artacağı gözlənilir. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,35 faiz, qeyri-neft ÜDM-in 5 faiz olacağı proqnozlaşdırılır. 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının artaraq 77,7 faizə çatacağı, neft-qaz sektorunun payının isə 22,3 faizə bərabər olacağı proqnozlaşdırılır.

***E.CƏFƏRLİ***

# “Torpaq icarəsi haqqında” Qanuna dəyişiklikləri kim və niyə təhrif etməyə çalışır?

## Azad edilmiş ərazilərdə torpaq islahatları çərçivəsində hər kəsə pay torpağı veriləcək

Milli Məclisin Aqrar siyasət komitəsində “Torpaq icarəsi haqqında” qanuna təklif olunan əlavə və dəyişikliklərlə bağlı qanun layihəsi müzakirə olunub. Layihədə nəzərdə tutulan dəyişikliklərə əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı əhalinin məskunlaşdığı kənd və qəsəbə ərazi vahidlərinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın aqrar təyinatlı torpaqlar bu ərazidə məskunlaşan kənd və qəsəbə sakinlərinə birillik və çoxillik əkinlərin aparılması üçün güzəştli şərtlərlə icarəyə verilməsi nəzərdə tutulur.

Məsələ ilə bağlı “Yeni Azərbaycan” qəzetinə açıqlama verən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərindəki kənd təsərrüfatı təyinatlı torpaqlar sahibkarlıq subyektlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın qaydalara uyğun olaraq investisiya müsabiqələri vasitəsilə icarəyə verilir. Bu qaydalara görə, sahibkarlar icarəyə götürdüyü torpaqlar üçün müəyyən edilmiş ödənişləri dövlət büdcəsinə köçürürlər. Yerli sakinlərə güzəştli şərtlərlə verilən icarə torpaqları üçün isə dövlət büdcəsinə ödəniş tələb olunmur.

Ümumilikdə, azad edilmiş ərazilərdə torpaqların icarəyə verilməsi torpaqların boş qalmaması məqsədini güdür və müəyyən dövr üzrə icarəni nəzərdə tutur. Hökumət həm biznes icmasını, həm də burada məskunlaşan insanları kənd təsərrüfatı təyinatlı torpaqların əkib-becərilməsinə cəlb etməklə onların gəlir əldə etmələrinə və məşğulluğuna imkan yaratmaq istəyir. Eyni zamanda, həmin torpaqların səmərəsiz qalmaması, bölgənin aqrar inkişafına töhfələr verilməsi, reinteqrasiya prosesinin təmin edilməsi məqsədilə bu tədbirlərin reallaşması nəzərdə tutulur.

### Torpaqlar boş və səmərəsiz qalmamaq üçün icarəyə verilir...

Ancaq məsələ ondadır ki, torpaqların icarəyə verilməsi ilə bağlı təşəbbüslər bəzi şəxslərdə və mediada müəyyən söz-söhbətlərə yol açıb və bu qərarın azad edilmiş ərazilərin sakinlərinin gələcəkdə pay torpaqları əldə etməsinin guya qarşısını alacağı kimi yanlış təsəvvürlərə səbəb olub. Guya, icarə müqaviləsi bağlayan sakinlər gələcəkdə həyətyanı və pay torpaqları almaq imkanlarından məhrum olacaqlar. Bu, qətiyyən belə deyil və həmin fikri ortaya atanlar heç bir dəqiqləşdirmə aparmadan, torpaq islahatlarının vəziyyəti haqqında məlumatları olmadan cəmiyyətdə, o cümlədən azad edilmiş ərazilərin sakinləri arasında əsassız fikir formalaşdırmağa çalışırlar. Tahir Rzayevin bu məsələyə mövqeyi ondan ibarətdir ki, hazırda minalardan təmizlənmiş ərazilərin torpaq sərhədləri müəyyənləşir, rayonların inzibati hüdudları dəqiqləşdirilir, torpaqların, habelə digər daşınmaz əmlak obyektlərinin inventarlaşdırılması və kadastrı hazırlanır, məlumatların elektron informasiya sisteminə inteqrasiyası həyata keçirilir. Həmin məsələlər tam yekunlaşdıqdan sonra torpaq islahatları keçiriləcək və azad edilmiş ərazilərin sakinlərinin hər biri pay torpağı ilə təmin olunacaq. İnvertarlaşdırma və məlumat bazasının yaradılması, digər hüquqi məsələlər isə vaxt aparır, bu prosesin bir neçə il çəkəcəyi gözlənilir. Bu səbəbdən həmin dövrə qədər torpaqların boş və səmərəsiz qalmaması üçün müvəqqəti olaraq icarəyə verilməsi məqsədəuyğun hesab edilir. Ancaq bu, o demək deyil ki, bu bölgədə torpaq islahatları aparılmayacaq.



### “Torpaq islahatı haqqında” qanunun 24-cü maddəsi...

Azərbaycanda torpaq islahatları 1996-cı il 16 iyulda Prezident tərəfindən təsdiq edilmiş “Torpaq islahatı haqqında” qanuna əsasən həyata keçirilir. Həmin hüquqi sənədə əsasən, ölkəmizdə MDB məkanında ilk dəfə islahat həyata keçirilərək uğurlu nəticələr və təcrübə əldə edilib. İslahatlar nəticəsində respublikamızda mövcud olmuş 2032 təsərrüfat, yəni, kolxoz və sovxozlar ləğv edilərək, onların əkinə yararlı münbit torpaqları əhaliyə paylanılıb. İşğal olunmuş rayonlarımız istisna olmaqla ökəmizdə torpaq payı almaq hüququ olan 870 min ailəyə torpaq payı verilib. Bu, 3.442.778 təsərrüfat subyekti deməkdir.

1997-2000-ci illəri əhatə edən torpaq islahatları dövründə Qarabağ və ətraf rayonlar Ermənistan tərəfindən işğal edildiyindən fiziki cəhətdən burada islahat aparmaq mümkün deyildi. Ancaq, bu bölgədə islahatların aparılması üçün həmin sənəddə hüquqi əsaslar müəyyən edilib. “Torpaq islahatı haqqında” Qanunun 24-cü maddəsində də qeyd edilib ki, “Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində zəbt edilmiş torpaqların azad olunmasından sonra torpaq islahatının aparılması və həmin torpaqlardan məcburi köçürülmüş şəxslərin xüsusi mülkiyyətinə torpaqların verilməsi bu Qanunda göstərilən qaydada həyata keçirilir”.

Bu qanun hüquqi istinad kimi hazırda işğaldan azad edilmiş rayonlarda torpaq islahatlarının aparılmasına təminat verir və hökumət komissiyası məhz həmin qanuna söykənərək keçmiş məcburi köçkün ailələrinin üzvlərinə pay torpaqlarının verilməsini təmin edəcək.

### Azad ərazilərdə islahatlar nə vaxt aparılacaq?

Yuxarıda da vurğuladıq ki, həmin bölgədə kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin inventarlaşdırılması, xəritələndirilməsi və elektron məlumat bazası mövcud deyil, torpaq sahələrinin uqodiyalar üzrə dövlət, bələdiyyə və xüsusi mülkiyyət bölgüsü yoxdur. Bu ərazilərdə daşınmaz əmlakın vahid kadastr uçotu işləri həyata keçirilmədən, torpaqların dəqiq uçotu aparılmadan və torpaq kadastrı yaradılmadan, həmçinin regionun rəqəmsal topoqrafik xəritəsi hazırlanmadan torpaq islahatının aparılması hüquqi və texniki baxımdan mümkün deyil. Bütün bunlar qeyd edilən işlər tamamlandıqdan sonra mümkündür.

Həmin işlər isə ardıcıllıqla davam etdirilir.

Xatırlatma üçün qeyd edək ki, 2021-ci il yanvarın 25-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Nazirlər Kabinetində keçirilən müşavirədə işğaldan azad edilmiş ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar işlənib hazırlanması barədə müvafiq dövlət qurumlarına tapşırıqlar verilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, Azərbaycanda mövcud qanunvericilik əsasında işğaldan azad olunmuş ərazilərdə torpaq islahatları həyata keçiriləcək. Vətəndaşlara pay torpaqlarının verilməsi mexanizmi də həmin hüquqi sənədlərə əsasən müəyyənləşəcək. Faktiki olaraq o bölgələrdən köçkün düşmüş soydaşlarımızın əlində mülkiyyət sənədləri yoxdur, ancaq dövlət onların həm mülkiyyət hüququnun, həm də pay torpağı hüququnun təmin olunması ilə bağlı bütün öhdəlikləri yerinə yetirəcək.

### “Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda nə deyilir?

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na dair Tədbirlər Planında müəyyən edilmiş hədəflərə uyğun olaraq (Prioritet istiqamət 5.1. Torpaqlardan səmərəli istifadənin təşkili və torpaq ehtiyatlarının idarə edilməsi) azad edilmiş ərazilərin işğala qədər mövcud olmuş torpaq fondunun kateqoriyalar və kənd təsərrüfatı yerləri (uqodiya) üzrə bölgüsünün kameral şəraitdə dəqiqləşdirilməsi müəyyənləşib. Həmçinin Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinə kənd təsərrüfatı dövriyyəsinə cəlb ediləcək torpaq sahələrinin müəyyən olunması və xəritələşdirilməsinin aparılması, torpaqların elektron kadastr uçotunun və aerofotoplanalma, ortofotoxəritələrinin hazırlanması, torpaq islahatlarının aparılması ilə bağlı müvafiq işlərin görülməsi və vəzifələr müəyyən edilib. Eyni zamanda, həmin proqramda kənd təsərrüfatı təyinatlı torpaqların torpaq islahatının aparılmasına qədər müddətli icarəyə verilməsi ilə bağlı tədbirlər görülməsi barədə maddə əks olunub.

Bütün bunlar bir daha onu təsdiq edir ki, azad edilmiş ərazilərdə torpaq islahatları mütləq aparılacaq və öz doğma evlərinə qayıdan hər ailə, hər ailənin üzvü pay torpağı ilə təmin olunacaq.

***E.CƏFƏRLİ***

# 22 ölkədən 400-ə yaxın şirkət...

## Bakıda keçirilən "Xəzər İnşaat Həftəsi" ölkələr arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulmasında vacib məkan rolunu oynayır

Oktyabrın 15-də Bakı Ekspo Mərkəzində regionun inşaat sahəsində ən önəmli tədbirlərindən biri olan "Xəzər İnşaat Həftəsi" işə başlayıb. Üç gün davam edəcək tədbir çərçivəsində 4 sərgi təşkil olunub ki, bura 22 ölkədən 380-dən artıq şirkətin nümayəndəsi qatılıb. Sərgilərdə Azərbaycan, Türkiyə, İran, Rusiya, Belarus, Özbəkistan, Çin, Cənubi Koreya, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Macarıstan, Rumıniya, Avstriya, Finlandiya, Böyük Britaniya, Almaniya, İtaliya və digər ölkələrin inşaat, təmir-tikinti, dizayn, interyer, avadanlıqlar, tikinti və sənaye texnologiyaları sektorlarını təmsil edən tanınmış şirkət, nüfuzlu holdinq və korporosiyaların biznes üzvləri öz imkanlarını nümayiş etdirir. Bu ilki sərgilərdə əvvəlki illə müqayisədə Çin şirkətlərinin sayında daha çox artım müşahidə olunur ki, bu da Bakı-Pekin müttəfiqlik münasibətlərinin yeni ruhunun bir göstəricisidir. Eləcə də Özbəkistanla inşaat-sənaye sahəsində son bir ildə əməkdaşlığın güclənməsi bu ölkənin 20-dən çox şirkətinin sərgiyə qatılmasına motivasiya yaradıb.

### 2003-cü ildə əsası qoyulmuş ənənə...

Xatırlatma üçün əlavə edək ki, 2003-cü ildən tikinti və inşaat infrastrukturları sektorunun təmsilçilərinin ənənəvi platformasına çevrilmiş "Xəzər İnşaat Həftəsi" ən son texnologiyaların və innovativ həllərin inteqrasiyasının təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Yerli və xarici biznes icması arasında əlaqələrin möhkəmləndirilməsinə töhfə verən mühüm beynəlxalq tədbir kimi "Xəzər İnşaat Həftəsi" Xəzər regionunun iqtisadiyyatının davamlı inkişafına yönəlmiş layihələrin uğurla həyata keçirilməsi və strateji tərəfdaşlıq əlaqələrinin qurulmasında da vacib məkan rolunu oynayır.



Hər il regional əhəmiyyətini artıran bu tədbir tikinti sektoruna aid ən qabaqcıl texnologiyalar, yeni inşaat modelləri üzrə təcrübələrin bölüşülməsi, təchizatçılar və tikinti peşəkarlarının yeni işgüzar əlaqələrinin qurulması, potensial tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi baxımından əlverişli fürsət və imkanlar deməkdir.

Ən inkişaf etmiş ölkələrin iqtisadiyyatında xüsusi yer tutan tikinti sektorunun iri investorlarının bir araya gələrək biznes imkanları və yeni ideyalarını təşviq etməsi isə nəticə etibarilə ümumilikdə tikinti biznesi icması arasında əlaqələri də möhkəmləndirir. Məhz bu əməkdaşlıq sayəsində müasir inşaat konseptləri də yenilənir, tikintinin keyfiyyəti və müasir siması da artır.

### "Yaşıl tikinti" üçün yaşıl meydan...

Cari ildə təşkil edilən "Xəzər İnşaat Həftəsi"nin mühüm özəlliyi isə COP29-a ev sahibliyi edən Azərbaycanın ətraf mühitin qorunmasında xüsusi əhəmiyyət kəsb edən müasir tikinti texnologiyalarının geniş tətbiqi və "yaşıl texnologiyalar" üzrə təşəbbüskarlığının artdığı dövrə təsadüf edir.

Azərbaycanın müasir inkişaf gündəliyində ekoloji mühitə zərərlərin azaldılması, dayanıqlı və ekoloji təmiz tikinti texnologiyalarının tətbiqi mühüm yer tutur. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet istiqamət "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyən olunub. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Həmin tədbirlərdən biri ekoloji vəziyyətin yaxşılaşdırılmasında mühüm rol oynayan "yaşıl tikinti" meyarlarına nail olmaqdır. Sənaye sektorunun ətraf mühitə zərərlərinin azaldılması və karbon emissiyasının azaldılmasının təşviqi məqsədilə Azərbaycanda fəaliyyət göstərən 11 tikinti və COP29 Təşkilat Komitəsinin bir neçə üzvü 2024-cü il uyulun 30-da "Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi"ni imzalayıb. Bəyannamənin məqsədi tikinti şirkətlərinin emissiyaların azaldılması məsuliyyətini dərk etdiyini göstərməsidir.



### "Ağıllı texnologiyalar"ı təşviq edən güzəştlər...

"Yaşıl tikinti" layihələri ekoloji cəhətdən təmiz və sağlam binalar tikmək üçün istifadə olunur. Bu cür layihələrdə ətraf mühitə təsirləri minimuma endirmək üçün material seçimi, enerji istifadəsi, suya qənaət və tullantıların idarə edilməsi kimi amillər diqqətlə planlaşdırılır. Bu prinsiplərdən irəli gələn əsas məsələlərdən biri tikinti sənayesi sektorunda karbon emissiyasının təsirlərinin azaldılması və "yaşıl tikinti" normalarının təşviqi məqsədilə vergi sistemində də dəyişikliklər də nəzərdə tutulur. Belə ki, iqlim dəyişikliyinə qarşı mübarizə və "yaşıl texnologiyalar"dan istifadənin genişləndirilməsi məqsədilə ekoloji və "yaşıl vergilər"in tətbiq dairəsinin müəyyən edilməsi istiqamətində iş aparılır. Bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, karbon emissiyasının azaldılması məqsədilə "karbon vergisi" və ya analoji verginin tətbiqi imkanları qiymətləndirilir.

Bütün bunlar ölkəmizdə "yaşıl tikinti" üzrə dünyada ən qabaqcıl meyarlara əsaslanmaqla, tikinti şirkətlərinin ətraf mühitlə bağlı daha yeni texnologiyalardan, ələlxüsus da "ağıllı texnologiyalar"dan istifadəsi imkanlarını artırmaqdır.

Bu baxımdan "Xəzər İnşaat Həftəsi"nin cari gündəliyi qeyd edilən meyaralara daha çox uyğundur və sərgilərdə iştirak edən şirkətlərin nümayiş etdirdiyi tikinti texnologiyaları, layihələr də məhz "yaşıl konsepsiyaya" söykənir.

### "Rebuild Karabakh" - azad ərazilərdə tikinti sərmayələri üçün yeni fürsətlər...

"Xəzər İnşaat Həftəsi" çərçivəsində Azərbaycanda Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı "Rebuild Karabakh" sərgisinin təşkili isə xüsusi əlamətdar iqtisadi hadisə kimi qiymətləndirilə bilər. İqtisadiyyat Nazirliyi, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, eləcə də digər azad olunmuş rayonlar üzrə Prezidentin xüsusi nümayəndəliklərinin, Qarabağ Dirçəliş Fondunun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) və digər təşkilatların təmsilçilərinin "Rebuild Karabakh" sərgisinə dəstək verməsi tədbirin əhəmiyyətini daha da artırmış olur.

Artıq 4-cü dəfədir ki, təşkil olunan "Rebuild Karabakh" sərgisinin əsas məramı Qarabağda baş verən müsbət dəyişiklikləri dünya ictimaiyyətinə çatdırmaq, eləcə də Qarabağın bərpası proseslərinə təşkilatları və müəssisələri cəlb etməkdir. Habelə, digər əsas hədəf Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarına investisiyaların həcmini artırmaq, xarici şirkətlərin bu ərzailərdə infrastrukturunun bərpasında, mülki obyektlərin tikintisində iştirakını təşviq etməkdir.

Hazırda Azərbaycanın böyük tikinti meydanına çevrilmiş azad ərazilər tikinti-inşaat sektorunun yeni ünvanı kimi diqqəti cəlb edir. Bu bölgədə dayanmadan fasiləsiz aparılan tikinti-quruculuq işlərində ən qabaqcıl tikinti normaları, müasir texnologiyalardan istifadə edilir, "ağıllı tikinti" modeli genişlənməkdədir.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti işlərində ekoloji yönümlü tikintilərə daha çox önəm verilir, ekoloji sağlam tikinti materiallarının istehsalı və bu prosesə bərpa olunan enerjinin inteqrasiyası da daxil olmaqla beynəlxalq təcrübələrdən geniş istifadə olunur.

### Xarici biznes icmasını azad ərazilərə həvəsləndirən görüşlər....

Bu baxımdan, "Rebuild Karabakh" sərgisi azad edilmiş ərazilərdə ən yeni "ağıllı tikinti" texnologiyalarının, innovasiyaların tətbiqi, bu sahəyə dünyanın iri tikinti-biznes sektorlarının nümayəndələrinin cəlb edilməsi sahəsində yaxşı fürsət hesab edilə bilər. Eyni zamanda, sərgiyə qatılan biznes icmasının azad ərazilərin yenidən qurulmasında potensial investor kimi qoşulması imkanlarının təşviqi, onlar arasında yeni müqavilələrin bağlanması üçün də əlverişli zəmin yaradır.

Həmçinin sərgi sahəsinin satışından əldə olunan gəlirlər azad olunan ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək olmaq məqsədilə, Qarabağ Dirçəliş Fonduna ianə edilir ki, bu amil də "Rebuild Karabakh"ın əhəmiyyətini artırır.

Ümumilikdə, iqtisadiyyatın əsas sahələrindən olan inşaat sektoru iqtisadi inkişafda, xüsusilə də iqtisadiyyatın dayanıqlığının möhkəmlənməsində önəmli rola malikdir. Tikinti sektoru ilə bütün iqtisadi zənciri hərəkətə gətirmək, digər sahələr üçün tələb və təklif yaratmaq mümkündür. Ona görə də dünya inşaat ailəsini bir araya gətirərək onları müasir biznes təşəbbüsləri əsasında real işlərə təşviq etmək iqtisadi inkişafa dəyər qatmaq üçün yaxşı fürsət deməkdir. Bu baxımdan, "Xəzər İnşaat Həftəsi" çərçivəsində təşkil edilən görüş və müzakirələr yuxarıda qeyd etdiyimiz əsas hədəf prinsiplərinə çatmaqda mühüm platforma rolunu oynayacaq.

***ELBRUS CƏFƏRLİ***

---

# Zaman tələb edən proses...

## Əsas hədəflərdən biri regionlarda formalaşmış infrastrukturun dəyərə çevrilməsidir

Ölkəmizin iqtisadiyyatı gücləndikcə, demək olar ki, bütün sahələrdə köklü islahatlar aparılır və iqtisadiyyatın bütün sahələrində əsaslı dönüş yaranır. Bu vaxtadək Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin edib. Son 20 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi artıb, əhalinin sosial vəziyyəti yaxşılaşıb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb.

Qeyd edək ki, bu gün ölkə iqtisadiyyatının güclənməsi istiqamətində regionlarımızın inkişafı, eyni zamanda dayanıqlı iqtisadi inkişaf modelinin tətbiqi də mühüm rol oynayır. Hazırda regionlarımızda iqtisadi aktivliyin artırılması, daxili və xarici sərmayələrin cəlb olunması, istehsal və ixrac imkanlarının artırılması üçün mühüm işlər görülür. Prezident İlham Əliyev hər zaman bu hədəfləri müəyyən edib. Dövlət başçısının bu sahədə yürütdüyü siyasət regionların sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır.

**Regionlarla paytaxt arasındakı fərq azalacaq**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Yeni Azərbaycan"a açıqlamasında qeyd edib ki, regionların sosial-iqtisadi inkişafı Azərbaycan üçün prioritet istiqamətlərdən biridir. Onun sözlərinə görə, bu sahədə qəbul edilən dövlət proqramlarının əsas hədəflərindən biri regionla Bakı arasındakı fərqin mərhələli şəkildə aradan qaldırılmasıdır: "Nəzərə alsaq ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının əsas hədəflərindən biri xüsusən də bölgələrə daha çox investisiyanın cəlb edilməsindən ibarətdir. Ötən müddətdə regionlarda infrastrukturun qurulması və bunun fonunda kommunal xidmətlərin əlçatanlılığının təmin edilməsi reallaşıb. Nəticə etibarı ilə rəsmi statistikada regionlarla Bakı arasında iqtisadi fərqin mərhələli şəkildə azalmasını hiss edirik. Bu, zaman tələb edən bir prosesdir və növbəti illərdə proses daha geniş şəkildə davam edəcək".

**Formalaşmış infrastrukturun dəyərə çevrilməsi...**

V.Bayramovun sözlərinə görə, əsas hədəflərdən biri də regionlarda formalaşmış infrastrukturun dəyərə çevrilməsidir: "Bu istiqamətdə həm yerli, həm də xarici investisiyanın cəlb edilməsi prosesinin təşfiq edilməsi həyata keçirilir. Ona görə də gözlənilir ki, regionlarla paytaxt arasındakı fərq azalacaq. Regionlarda ixtisaslı kadrların işlə təmin olunması ilə bağlı dövlət proqramlarının, eləcə də investisiya layihələrinin sayında artımlar var ki, bu da, xüsusilə bölgələrimizin inkişafı baxımından vacib hesab olunur".

**Sahibkarlar üçün güzəştlər**

Millət vəkili regionların sosial-iqtisadi inkişafı istiqamətinə görülən işlər arasında işğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərən sahibkarlara göstərilən güzəştlərin də olduğunu vurğulayıb: "Təbii ki, bu istiqamətdə genişmiqsaylı güzəştlərin tətbiq ediləcəyi gözlənilir. İşğaldan azad edilmiş ərazilərdə və digər bölgələrimizdə sənaye parkları, sənaye məhəllələri vasitəsilə güzəştlərin tətbiqi birmənalı şəkildə bunu təsdiq edir ki, sahibkarlığın təşviqi əsas istiqamətlərdən biridir. İşğaldan azad edilmiş ərazilərimizdə iqtisadiyyatın formalaşmasına və onun Azərbaycan iqtisadiyyatına reinteqrasiyası prosesinə sahibkarlar daha fəal şəkildə cəlb olunacaqlar. Burada fərqli güzəşt mexanizmlərinin tətbiqi, xüsusən güzəştli kreditlərin sayının artırılması kimi hədəflər var.

Torpaqlarımızın işğaldan azad olunması ilə regionların inkişafı yeni mərhələyə keçdi: Bir tərəfdən torpaqlarımızın işğaldan azad olunması regionların inkişafı ilə bağlı yeni modelin tətbiqini gündəmə gətirdi. Bu istiqamətdə işlər davam edir. Nəzərə alaq ki, işğaldan azad olunmuş ərazilərimizdə idarəetmə forması yenidir. Eyni zamanda "Ağıllı kənd", "Ağıllı şəhər" prinsipinə uyğun olaraq yaşayış məntəqələrinin salınması həyata keçirilir ki, bu da artıq Azərbaycan üçün regionların inkişafı baxımından yeni bir yanaşmadır".

**Regionlarımızda rentabellik yüksəlib...**

Deputat qeyd edib ki, regionlarda mütəmadi olaraq reallaşdırılan layihələr bölgələrdə sosial infrastrukturun təminatını, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsini, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını özündə ehtiva edir: "Yeni müəssisələrin istifadəyə verilməsi ilə yeni iş yerləri açılır, əhalinin məşğulluğu təmin edilir. Uğurla icra olunan dövlət proqramları nəticəsində regionlarda şəhər, qəsəbə və kəndlərin siması köklü şəkildə dəyişib, regionların potensialı xeyli artıb, rentabellik yüksəlib.

Dünya qlobal iqtisadi böhranla üzləşdiyi və işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işlərinin aparıldığı bir vaxtda ölkə başçısı regionların sosial-iqtisadi inkişafını diqqətdə saxlayır. Prezident xüsusilə azad olunmuş bölgələrimizə səfərlərində bir sıra mühüm infrastruktur obyektlərinin açılışını edir. Dövlət başçısının görülən işlərə birbaşa nəzarət etməsi əhalidə böyük ruh yüksəkliyi ilə qarşılanır".

***Yeganə BAYRAMOVA***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

---

# Yeni növ təxribatın köhnə ünvanı...

## COP29 öncəsi ölkəmizə qarşı böhtan kampaniyasında "hüquqi yalan" ifşa edildi

Tarixən mühüm nüans kimi qiymətləndirilən təhlükəsizlik amili son dövrlərdə daha qabarıq şəkildə təzahür etməyə başlayıb. Bu da səbəbsiz deyil. Dünyanın əksər regionlarında artan xətlə inkişaf edən distabillik, artıq lokal çərçivədən qlobal qarşıdurmaya çevrilən kataklizmlər, radikal qruplaşmaların yaratdığı xaos, reliqiyafobiya, antisemitizm, nihilizm kimi məsələlər təhlükəsizliyin təmini məsələsini ilk sıralara "daşıyıb". Hətta illərlə təhlükəsizlik indeksinə görə ön sıralarda yer alan Qərb dövlətləri belə bu gün terror və ya təhdidlərdən sığortalanmayıb.

Paralel olaraq, hüquqsuzluq məsələsi də təhlükəsizlik amilinin əsas predmetlərindən biri kimi ortaya çıxır. Bir sıra dövlətlərdə hüquqa skeptik yanaşma, başqa sözlə hüquqsuzluq fərdi təhlükəsizliyi təhdid altına salır. Bu kimi ölkələrdə beynəlxalq konvensiyalara barmaqarası yanaşmalar, hüquqi razılaşmaların kobudcasına pozulması halları yaşanır ki, bu da nəticə etibarı ilə mənfi tendensiyalara yol açır.

Azərbaycan isə həm regional, həm də qlobal miqyasda sabitlik identikliyinə görə yüksək yer tutur. Kiçik və ya böyük həcmli kataklizmlərdən uzaq olan, dini-milli müstəvidə qarşıdurmaların yaşanmadığı, hər hansı bir formada reliqiyafobiyanın qeydə alınmadığı və ən əsası hüqüqun aliliyinə hörmət və sadəqət nümayiş etdirən ölkəmiz beynəlxalq qanunvericilik prinsiplərinə hər zaman riayət edib. Azərbaycan hər zaman haqqın, ədalətin, hüququn tərəfində dayanıb. Ölkəmizdə hər zaman hüququn aliliyi əsas prioritet kimi çıxış edib.

### Fransa XİN-in yalanı...

Bu kimi addımlar isə Azərbaycanın beyəlxalq imicinə müsbət təsirlər göstərir. Bu isə ölkəmizin düşmənlərini qıcıqlandırır - bunun nəticəsidir ki, bütün kontekstlərdə ölkəmizə qarşı qarayaxma, şərböhtan kampaniyası yürüdən Fransa bu dəfə ölkəmizə qarşı "hüquqi yalanlar"la yadda qalıb. Belə ki, bu il sentyabrın 29-dan oktyabrın 2-dək Bakıda keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının illik konfransını pozmaq üçün Fransa Xarici İşlər Nazirliyi səviyyəsində təxribata əl atıbmış.



KİV-ə məlum olub ki, tədbirdə Fransadan 10-a yaxın nümayəndənin iştirakı nəzərdə tutulsa da, Fransanın Xarici İşlər Nazirliyi onlara yazılı şəkildə xəbərdarlıq edərək, Azərbaycana səfər edəcəkləri təqdirdə guya Bakıda həbs təhlükəsi ilə üzləşə biləcəklərini iddia edib. Bu iddianı əsas gətirən Fransa XİN onlara Azərbaycana getməməyi tövsiyə edib. Nəticədə Fransadan cəmi 3 nəfər - bu ölkənin baş prokurorunun müavini Gilles Charbonnier, Frankofoniya Assosiasiyasının katibi İvanni Bulvar və Sirakuza Beynəlxalq İnsan Hüquqları Universitetinin prezidenti Jan-Franko Toni tədbirdə iştirak edib, səfərdən də məmnun qalıblar. Həmçinin məlum olub ki, Fransa XİN konfransda iştirak üçün qeydiyyatdan keçmiş fransızdilli ölkələrin nümayəndələrinə də ölkəmizə səfər etməməyi tövsiyə edibmiş.

### Əsassız bəyanat, təhrif olunan reallıq...

Əslində, bu yöndə təxribatçı addım ilk deyil - bu ilin avqustunda Fransanın Avropa və Xarici İşlər Nazirliyi Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız fikirlər səsləndirmişdi. Qurum bu iddiaları səbəb gətirirək, Azərbaycana dair sərt səyahət xəbərdarlığı etmişdi. Məsələyə Azərbaycanın reaksiyası da sərt olmuşdu - ölkə XİN-i səviyyəsində bildirilmişdi ki, Fransa tərəfindən verilmiş bu cür əsassız və qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir. Qeyd olunmuşdu ki, Fransa vətəndaşlarının əsassız olaraq saxlanıldığı və həbs edildiyi barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunmasıdır.

Qeyd edək ki, indiyə qədər Azərbaycanda Fransa vətəndaşlarının həbs edilməsi faktı qeydə alınıb - ötən ilin dekabrında Fransa Respublikasının vətəndaşı Martin Rian Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Klerk Teo Hüqo Bakı Metrosunda törətdiyi əmələ görə saxlanılıb. Yəni hər iki hal törədilmiş əməlin qarşılığıdır - bunların hansısa fərqli siyasi izahı ola bilməz. Azərbaycanda insan hüquqlarının "pozulması" kimi yalan bəyanatlar səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquqi pozuntuları, neo-kolonial siyasəti, irqçilik, diskriminasiya, İslamofobia, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur - Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olar.

### Azərbaycandakı təhlükəsizlik mühiti beynəlxalq səviyyədə təsdiqlənir...

Tək Fransa deyil, Azərbaycana səfər edən bütün ölkələrin vətəndaşlarının, hətta adi turist məqsədilə ölkəmizə gələn insanlardan diplomatik səfərə gələn nümayəndələrə qədər hər kəsin təhlükəsizliyi və hüquqlarının qorunması ən yüksək səviyyədə həyata keçirilir. Hətta 30 ilə yaxın təcavüzkar siyasət aparan, Azərbaycanın torpaqlarını işğal altında saxlayan Ermənistan vətəndaşları belə bəzi istisna hallarda Azərbaycana səfər edib ki, onların da təhlükəsizliyi ən yüksək səviyyədə təmin olunub. Bu baxımdan Fransanın bu tip yalanlar üzərindən manipulyasiya aparması cəhdi əbəsdir. COP29 qabağı Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsi sayılan bu kimi yalanlar isə ilk addımdaca ifşa edilir. Çünki bu cür iddiaların əsası yoxdur - Azərbaycanın hüquqa baxışı Fransadan fərqli olaraq fundamental əsaslara söykənir. Fransa hətta öz vətəndaşlarının belə hüquqlarını qorumadığı halda, Azərbaycan dövləti ölkəmizə səfər edən hər kəsin rahatlığına və təhlükəsizliyinə cavabdeh olur. Bu fakt dünyanın aparıcı şirkətləri və beynəlxalq institutları tərəfindən də təsdiqlənir, Azərbaycan Qlobal Terrorizm İndeksinə (QTİ) görə dünyanın ən təhlükəsiz ölkələrindən biri sayılır. Xatırladaq ki, Qlobal Terrorizm İndeksi dünya əhalisinin 99,7 faizinin məruz qaldığı terrorun təsirini təhlil edən hərtərəfli araşdırmadır. Bu fakt özlüyündə Makron hökumətinin xəbis niyyətini ifşa edir - Azərbaycanda hansısa bir saxlanılma və ya qeyri-qanuni həbs faktı qeydə alına bilməz. Hüquqi dövlət olan Azərbaycanda qanunun tələbləri ən yüksək səviyyədə qorunur. Beləliklə, Fransanın bu gülünc iddiası özünüifşadan uzağa getmir...

***P.İSMAYILOV***

# Qərbin yeni planı - Ermənistan qorxulu oyuna sürüklənir...

## Fransa Qərbi Zəngəzurda yeni "kamp" salmaq niyyətinə düşüb?

2020-ci ildən başlayaraq bölgədə yaranan yeni siyasi reallıqlar olduqca maraqlı bir mənzərə formalaşdırıb. "Qarabağ kartı" əlindən çıxan Qərb regionda destabilizasiyanın yeni fazasını yaratmaq üçün yollar axtarır. Hazırkı vəziyyətdə buna nail olmaq imkanı çox aşağıdır - çünki daima bölgədə "siyasi-hərbi alət" rolunu oynayan Ermənistan çox zəifdir. 44 günlük müharibə vaxtı:

- Ordusu darmadağın edilib;

- Onsuz da zəif olan iqtisadiyyatı çöküş yaşayır;

- Sosial vəziyyət acınacaqlı haldadır;

- Ermənistan vətəndaşlarını yenidən qarşıdurmalara cəlb etmək çox çətin olacaq - onlar Azərbaycanın gücünü əyani şəkildə gördülər...

Beləliklə, Qərb aylardır Ermənistanı silahlandırmaqla, orada jandarmeriya formalaşdırmaqla yanaşı, həm də özünün başqa planlarına da "korrektə" etmək məcburiyyətindədir. Başqa sözlə desək, "B" planı işə düşür...

## Boşalan "Sünik"ə kimlər köçürülə bilər...

### Paris iş başındadır...

Avropanın siyasi analitikləri Qərbin güclü siyasi manevr qabiliyyətini hər zaman önə çəkirlər - xüsusilə, Fransanın ən minimal ehtimalı belə dəyərləndirmək üçün milyonlar xərclədiyi şübhəsizdir. Paris həm də özünün "sərmayəsi"ni boş yerə xərcləməz - pafoslu "erməni sevgisi" balladası boş taftalogiyadan uzağa getməyən faktordur. Makron hakimiyyəti müəyyən mənada kollektiv Qərbin "siyasi paradiqma"sını həyata keçirir. Qabarma və çəkilmə mərhələlərinə əsaslanan bu siyasi xəttin aşağı-yuxarı nəticələri və səmərəsi əvvəlcədən hesablanıb. Əksini inkar etmək çətindir.

Məsələn, Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyi "X" səhifəsində bildirib ki, Dünya Ərzaq Proqramı çərçivəsində Qərbi Zəngəzurda həyata keçirilən layihələrin yarıdan çoxu Fransa tərəfindən maliyyələşdirilir. Səfir Qərbi Zəngəzuru (ermənilər Sünik deyir) strateji cəhətdən vacib və həssas bir bölgə kimi dəyərləndirib. "Fransa Ermənistanda öz resurslarını inanclarına uyğun olaraq istifadə edir", - deyə səfir qeyd edib.

İlk baxışdan ənənəvi "dəstək" kampaniyasının tərkib hissəsi sayılan bu açıqlama özündə bir sıra siyasi-sosial planları gizləyə bilər. Verilən koordinata və "bəyanata" kompleks şəkildə nəzər saldıqda bəzi məsələlər diqqəti cəlb edir. Niyə axı Sünik? Ermənistanda Sünikdən zəif region yoxdur - heç bir parametrinə görə, Sünik sosial cəlbediciliyə və strateji



əhəmiyyətə malik deyil. Tam əksinə, Ermənistanın ən az məskunlaşma bölgəsi sayılan bu tarixi Azərbaycan torpaqlarında 1990-cı illərdən bəri kütləvi köçlə bağlı statistika mühüm rəqəmlərlə ifadə edilir...

### Demoqrafik vəziyyət ermənilərin dili və gözü ilə...

Kiçik bir arayış verək: - Azərbaycanın tarixi Qərbi Zəngəzur torpağı olan Sünik vilayəti 1995-ci ildə yaradılıb. Ermənistan parlamentinin 7 noyabr qərarı ilə Qafan, Sisiyan, Meğri və Gorus rayonları ləğv edilib, onların hesabına Qafan mərkəz olmaqla Sünik vilayəti formalaşdırılıb. 4506 kvadrat kilometr əraziyə malik bu vilayətdə son statistikalara görə 120 mindən az adam yaşayır - bu rəqəm Ermənistanın özünün elan etdiyi rəqəmdir və onun şişirdilməsi çox böyük ehtimala söykənir. Müqayisə üçün bu regionun coğrafi ərazisi ilə eyni ölçülərə malik Azərbaycanın iki rayonunu götürsək, məsələn, Tovuz və Quba rayonlarını (ikisinin birgə ərazisi 4505 kvadrat kilometr), orada 400 mindən artıq insan yaşayır. Sünikdə orta sıxlıq hər kvadrat kilometrə cəmisi 26 nəfər düşür. Bu, həmin regionun hazırkı yaşayışsızlıq mənzərəsini özündə əks etdirir.

Paralel olaraq qeyd edək ki, bu regiondan miqrasiyanın dərəcəsi də olduqca böyükdür - 2023-cü ilə olan məlumata görə, 2019-cu illə müqayisədə Sünik əhalisi 15 faiz azalıb. Bu barədə Ermənistanda partiya sədri olan Mesrop Arakelyan özünün Facebook səhifəsində yazıb.




Və ya başqa bir rəsmi əsas: erməni tarixçi-demoqraf Mikael Malxasyan bildirib ki, 2022-ci ildə aparılan siyahıyaalınma zamanı ortaya çıxan rəqəmlərlə 2011-ci ildəki siyahıyalınma zamanı mövcud olan rəqəmləri müqayisə edərkən ən acınacaqlı durumun Sünikdə yaşandığını görmək olar: "2022-ci ildə əldə edilən rəqəmlər onu göstərir ki, Sünikdə daimi əhalinin sayı 2011-ci illə müqayisədə təxminən 20 faiz azalıb - başqa sözlə hər beşinci sakin Sünikdən çıxıb".

Malxasyan bildirib ki, Sünikdə daimi əhali əgər 2011-ci ildə 114 488 nəfər idisə, 2022-ci ildə 110 000 nəfərdən azdır.

Beləliklə, bu rəqəmlər özündə bəzi maraqlı nüansları ehtiva edir. Qərbin timsalında Fransa görəsən Süniki hansı "xüsusi əhəmiyyətinə" görə, özünün "himayəsinə" alır?

### "Çoxbaşlı" plan...

Qeyd edildiyi kimi, Qərbin planı heç vaxt "birbaşlı" olmur - onlar daima bir plan üzərindən fərqli istiqamətlərdə mənfəət güdməyə öyrəşiblər. Fransanın Sünik planında da mütləq şəkildə bir sıra qaranlıq mətləblər yatmaqdadır:

- Qərb bu yolla Ermənistana maliyyə yardımını "şəffaflaşdırmaq" istəyir;

- Yenidən çirkli pulların yuyulması ehtimalı ortaya çıxır;

- Qərbi Zəngəzura yerləşdirilən və yerləşdiriləcək hərbi gücün maliyyə ilə təmin edilməsi üçün bəhanələr uydurulur;

- Açılma ehtimalı günü-gündən artan Zəngəzur dəhlizinə qarşı anti-arqument yaratmaq istəyirlər;

- Ermənistanın demək olar ki, adam yaşamayan bu ərazisində özünün xüsusi planlarını təmin edir (laboratoriya sınaqları);

-Nəhayət, yeni məskunlaşma planı reallaşdırılır.

Yuxarıda qeyd edilən bütün ehtimalların bu və ya digər şəkildə özünün əsaslandırılması mövcuddur. Ən maraqlı məqam təbii ki, süni yerləşdirmə planıdır ki, bu məsələyə xüsusi toxunmaq gərəkir...

### Eyni koordinat - Fransa yeni oyununu Qərbi Zəngəzura istiqamətləndirir

Birinci Qarabağ müharibəsindən sonra Ermənistan və onun himayədarları sayılan Qərb dünyası işğal faktını daha da möhkəmləndirmək üçün Azərbaycan ərazilərinə xarici ölkələrdən erməniləri köçürməyə başladı. Hətta 30 il ərazində Qarabağa, Şərqi Zəngəzura Yaxın Orta Şərqdən (daha çox Livandan), Avropadan və digər regionlardan "erməni ailəsi" adı altında terrorçu birliklərin yerləşdirilməsi, onların fonunda isə "əhali sayını artırmaq istəyi sirr deyildi. Ermənistan KİV-nə istinadən bəzi faktlara diqqət yetirək:

- 2012-2015-ci illərdə, köçürülən əhalinin tikinti materialları ilə təmin olunmasına 3 milyard Ermənistan dramı (5,8 milyon ABŞ dolları) ayrılmışdı;

- Təkcə 2015-ci ildə bu məqsədlər üçün təxminən 350 milyon Ermənistan dramı (673 min ABŞ dolları) ayrılmışdı;

- 2007-ci ilin iyununda Ermənistanın "Hetq" internet nəşri qondarma "DQR"in nümayəndəsinə istinadən xəbər verirdi ki, 2001-ci ildə, ümumilikdə, 36 min nəfərin köçürülməsi üzrə 10 illik Strateji Plan qəbul edilib. Bu plana əsasən, 10 min mənzilin, 200 məktəbin, səhiyyə müəssisələri, suvarma kanalları və yolların tikintisi planlaşdırılırdı. Bu hədəflərin icrası üçün təxminən 120 milyon ABŞ dollarının ayrılması nəzərdə tutulurdu.

Real rəqəmlər bu səsləndirilən rəqəmlərin daha da üstündədir - bu maliyyə vəsaiti isə təbii ki, Ermənistanın özü tərəfindən ödənilmirdi. Həmin dövrlərdə də Qərb fərqli fondların əli ilə Ermənistanı "stimullaşdırmaq", "sosial inkişaf etdirmək" adı altında bu planlara yüz milyonlarla pul xərcləyirdi. Diqqət yetirsək, koordinat yenə də eyni nöqtəni göstərir - Fransa bu gün eyni fəaliyyəti Qərbi Zəngəzurda həyata keçirməyə başlayır.

### Sünikin seçilmə səbəbi...

Səsləndirdiyimiz ritorik sual yenə də ortaya çıxır - niyə bu plan üçün Sünik seçilib? Fransanın Qərbi Zəngəzurun boş ərazilərinə xüsusilə Livandan gətirilmiş terrorçuları, silahlıları, qeyri-sivil insanları yerləşdirməsinin altında mühüm məqamlar yatır.

Birincisi, Fransa Qərbi Zəngəzura pul ayırmaqla və orada Livandan olan erməniləri məskunlaşdırmaqla hazırkı situasiyada Qərbi təhdid edən yeni mühacir axınının qarşısını almağa çalışır. İllərdir qeyri-qanuni mühacir axınına məruz qalan Qərb anlayır ki, yeni axın "köhnə qitə"nin demoqrafik atlasını kökündən dəyişəcək - bu dəfə əhali nisbəti əsaslı şəkildə gözə görünəcək səviyyəyə qalxacaq. Bunun qarşısını almaq üçün isə Ermənistanın demək olar ki, boş Sünik vilayəti tam olaraq uyğundur.

İkincisi, Qərb bu yolla region üzərində yeni təhdid yaratmaq üçün özünün maliyyələşdirdiyi silahlı terrorçuları həmin ərazilərə yerləşdirəcək. Sünik bunun üçün olduqca "əlverişlidir" - bu ərazi həm Azərbaycana, həm İrana, həm də Türkiyəyə yaxındır. Dolayısı ilə həm Rusiya, həm də Gürcüstan bu yolla "nəzarətdə" saxlanıla bilər. Paralel olaraq Mərkəzi Asiya və digər ərazilərə qədər "əl uzana bilər".

Üçüncüsü və ən real məsələ isə "gələcəyin layihəsi" adlanan Zəngəzur dəhlizinə qarşı yeni sabotajdır. Məhz Livandan və başqa ərazilərdən köçürülən ermənilərin əli ilə "təhdid görüntüsü" yaratmağa çalışan Qərb dəhliz üzərində özünü "söz sahibinə" çevirməyə çalışır. Beləliklə, Fransanın Qərbi Zəngəzura maliyyə axını yönləndirməsi özünün gerçək səbəblərini ortaya çıxarır.

### 5 aprelin daha bir məqamı üzə çıxır...

Bu fakt həm də bir başqa nüansda özünü qabarıq şəkildə hiss elətdirir - Qərbin son illərdə apardığı "mübarizə" vahid qütb olmaq uğrundadır. Bu "ideyaya" əks çıxan, özünün müstəqil siyasi kursundan dönməyən, lokal qarşıdurmalarda tərəf olmayan dövlətlərə qarşı Qərb yenidən ənənəvi "qorxu xofu planı" yürütmək istəyir. Bir çox siyasi mütəxəssislər bu planın da məhz 5 aprel görşündə razılaşdırıldığını düşünür. Orada hərbi və siyasi "dəstəklə" yanaşı, sosial "dəstək"dən söz açılması məhz bunu ifadə edir. Belə ki, Qərb institutları məhz bu ad altında terrorçuların maliyyələşdirilməsini həyata keçirə bilər...

**P.İSMAYILOV**

# "Sülh qovşağı" burulğanında...

## Siyasi rəhbərlik təkzib olunur

**Son aylarda Ermənistanın nümayiş etdirdiyi yanaşma sülhdən daha çox prosesin uzadılmasına xidmət göstərir. Qeyri-ardıcıl məntiqlər, qarışıq fikirlər, özünütəkzib kimi faktlar səsləndirən Ermənistanın siyasi rəhbərliyi davranışı ilə belə mənzərə formalaşdırır - onlar hansısa vahid bir mövqeyə əsaslanmırlar. Bu isə prosesin irəliyə doğru getməsindən daha çox geriləməsinə səbəb olur.**

### Paşinyan gah razı olur, gah da...

Maraqlıdır ki, bu kimi özünütəkzib daha çox baş nazir Nikol Paşinyanın çıxışlarında diqqəti cəlb edir. "Situasiyaya uyğun davranış" və ya "situasiyaya uyğun ritorika" kimi peşəkarlıqla uzlaşmayan fikirlər Paşinyanın onsuz da qeyri-ciddi qəbul olunan "siyasi obrazını" daha da gülüncləşdirir. İki ildən artıqdır davam edən sülh prosesində tez-tez mövqe dəyişən Ermənistan bu yolla regional proseslərə də mənfi təsir göstərir. Məsələn, Zəngəzur dəhlizi kimi aktual bir məsələdə bu ölkənin rəhbərliyinin ardıcıl bir fikri yoxdur. Misal: bir müddətdir Zəngəzur dəhlizinin açılması ilə bağlı 2020-ci ilin 10 noyabrında imzalanan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikdən yayınan Ermənistan bunu "suverenlik" amili ilə əlaqələndirirdi. Moskvada MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində Zəngəzur müzakirələrindən sonra Nikol Paşinyan İrəvanda "Sülh qovşağı" konfransındakı çıxışında Sünik (Qərbi Zəngəzur) vilayətindən keçən yola nəzarət funksiyasını Rusiyanın Federal Təhlükəsizlik Xidmətinə verilə biləcəyini istisna etməyib. O bildirib ki, gəlin bir daha xəritəyə nəzər salaq: "Fikrimcə, Rusiya tərəfi tranzit məsələsində olduqca maraqlıdır. Çünki bu siyasi, həm də iqtisadi baxımdan ciddi əhəmiyyət kəsb edir. Əgər onlar bu ərazidəçn keçirlərsə, sözsüz ki, onların bu yola nəzarəti mümkündür. Bu nəzarətin hansı səviyyədə olacağını bilmək vacib deyil. Sadəcə, onu anlamalıyıq ki, bu mümkündür".



İlk baxışdan bu açıqlama onu göstərir ki, Nikol Paşinyan imza atdığı 10 noyabr Bəyanatı ilə üzərinə götürdüyü öhdəliyi yerinə yetirəcək - amma, cəmisi bir müddət sonra ölkənin baş naziri XİN sözcüsü tərəfindən təkzib edildi. Ani Badalyan ölkəsinin siyasi hakimiyyətinin başında duran şəxsin dolayısı ilə qeyri-səmimi olduğunu, sülh məsələsini manipulyasiya etdiyini "təsdiqlədi".

### Baş nazir təkzib edilir...

Bəli, Badalyan Paşinyanın fikirlərini açıq kontekstdə Ermənistan hakimiyyətindəki qərarsızlığı, daha doğrusu, yalanları üzə çıxarır. Vəziyyət o həddə gəlib çatıb ki, ölkənin baş naziri təkzib olunur. Badalyan yerli mətbuata müsahibəsi zamanı deyib ki, Bəyanatda çox aydın yazılıb: "Aydındır ki, Ermənistan Respublikası bunu öz yurisdiksiyası və suverenliyi çərçivəsində etməlidir. Rusiya Federasiyası FTX-nin sərhəd xidməti orqanlarına gəlincə, onların fiziki mövcudluğu üçtərəfli bəyanatın 9-cu bəndində nəzərdə tutulmayıb:

Göründüyü kimi, rəsmi İrəvan Paşinyana rəğmən 10 noyabr Bəyanatının 9-cu bəndi üzrə əldə olunmuş razılaşmanı təkzib etməyə, dolayısı ilə redaktə etməyə çalışır. Halbuki, həmin bənddə açıq şəkildə qeyd edilir: "Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir".

### Nikolun növbəti "manevri" - yeni yalanlar ona "vaxt" qazandırır?

Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan sülh prosesi bütövlükdə, Cənubi Qafqazın yeni iqtisadi-siyasi mərhələsini yaradacaq. Ermənistana isə burada xüsusilə çox "pay" düşəcək. Qərbin çətiri altına sığınaraq sülh prosesini ləngitməyə çalışan Ermənistan anlamılıdır ki, Azərbaycanın formalaşdırdığı yeni reallıqlar daha çox onların işinə yarayacaq. Ölkəmiz Şərq-Qərb tranzitinin formalaşması və rentabelli şəkildə fəaliyyəti üçün mühüm fəaliyyət nümayiş etdirir. Başqa sözlə, bizim fəaliyyətimiz ümumən Cənubi Qafqazın inkişafını hədəfləyir.

Təəssüfləndirici haldır ki, Paşinyan bu məsələdə də manevrə əl atır - daha doğrusu, yalan danışaraq prosesi İrəvanın tormozlamağa çalışdığını gizlətməyə niyyətlənir. Ötən həftəsonu İrəvanda keçirilən "Dünyanın kəsişməsi: Təhlükəsizlik və demokratiyanın birləşməsi" konfransında çıxış edən Paşinyan bildirib ki, guya "Azərbaycan "Dünyanın kəsişməsi" layihəsinin Ermənistana on milyardlarla dollar gəlir gətirə biləcəyindən narahatdır".

Görəsən, Azərbaycan bundan niyə narahat olmalıdır? Axı, regionda "3+3" kimi əməkdaşlıq platforması, Zəngəzur dəhlizi kimi yeni əsrin yeni layihəsi, hətta Qafqaz evi kimi ortaya çıxan layihələrin təşəbbüskarı Bakı deyilmi? Paşinyan bu yalan fikirləri ilə prosesi dalana salmağa niyyətlənir.

O, iddia edir ki, bu kontekstdə Azərbaycanın narahatlığı ikitərəflidir -guya bir tərəfdən, Azərbaycan ciddi şəkildə düşünür ki, əgər Ermənistanın strateji perspektivdə ona qarşı təcavüzkar planları varsa, bu vəsaitlər ona qarşı istifadə oluna bilər, digər tərəfdən, Azərbaycanın Ermənistana qarşı təcavüzkar niyyəti varsa, milyardlarla vəsait Ermənistanın müdafiə qabiliyyətini artırmaq üçün istifadə oluna bilər ki, bu da onun təcavüzkar planlarının həyata keçirilməsində problemlər yaradacaq.

Beləliklə, Paşinyan birmənalı şəkildə yenə də özünü təkzib edir - əgər Azərbaycanın Ermənistana qarşı hansısa bir "planı" olsaydı, nə üçün 2022-ci ildən səbrlə sülh prosesinin inkişafına maraq göstərirdi? Məğlub Ermənistana sülh təklifi irəli sürmək Azərbaycanın humanizmindən xəbər vermirmi?

Sadəcə olaraq, erməni məkri Paşinyanı yenə də "siyasi dolanbaclara" salıb. Amma o da anlayır ki, artıq yol bitir - İrəvanın yeganə yolu Azərbaycanın şərtləri daxilində sülhə gəlməkdir...

**S.İSMAYILZADƏ**

# Martinika xalqı Parisə etiraz edir

## Fransa Müstəmləkələrinin Beynəlxalq Azadlıq Cəbhəsi Martinika ilə bağlı bəyanat yayıb

**Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını ən ağır təzahürlər kimi adiləşdirərək dövlət siyasətinə çevirib. Özünü demokratiya və insan hüquqlarının təminatçısı kimi bəyan edən Paris neokolonializmi davam etdirməklə dünyada ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə məhəl qoymur.**

### BMT Fransadan tələb etsə də...

Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib. Yerli xalqlar iqtisadi, siyasi və mədəni təzyiqə məruz qalıblar. Belə ərazilərdən biri də Martinikadir. Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Bakıda keçirilən beynəlxalq konfranslarda dəfələrlə bu məsələyə toxunulub. Ən dəhşətlisi odur ki, fransızların tətbiq etdikləri zəhərli maddələr nəticəsində Martinikada əhalinin xeyli hissəsi zəhərlənib. Fransa bu məsələ ilə bağlı həkimlərə belə danışmağa icazə verməyib. Zəhərli olmasına rəğmən Fransa tərəfindən Martinikada kənd təsərrüfatı sahəsində hələ də xloredkon istifadə edilir. Nəticədə Martinikanın torpaqları uzun illərdi zəhərlənib və xərçəng göstəriciləri dünyada ən yüksəkdir.

Bu gün Fransa Martinika xalqının öz müqəddəratını təyin etmə hüququnu tam təmin etmədiyinə görə BMT Nizamnaməsinin maddələrini pozur. Məsələn, BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransa Martinika xalqına daha geniş özünüidarə və ya müstəqillik hüququ verməlidir. BMT-nin 1514 saylı qətnaməsinə uyğun olaraq, Fransa müstəmləkə sistemini davam etdirdiyi üçün bu qətnamənin müddəalarını pozur. Qətnaməyə zidd olaraq Fransa Martinika xalqına müstəqillik və ya geniş daxili özünüidarə hüququ vermək istəmir və onun müddəalarını bilərəkdən pozur. 1946-cı il qanunsuz referendumu nəticəsində Martinika Fransanın dənizaşırı departamenti statusunu alıb. Bununla, Martinika beynəlxalq hüququn və yerli əhalinin öz müqəddəratını təyinetmə hüququna zidd olaraq Fransa ərazisinin bir hissəsi kimi rəsmi olaraq tanınıb və idarəçilik baxımından Fransa qanunlarına tam şəkildə tabe edilib.

FRONT INTERNATIONAL DE DECOLONISATION

### Yerli əhali öz haqlarını tələb edir

Yerli əhali isə fransız idarəçiliyi ilə yaşamaq istəmir və xalq dəfələrlə etiraz aksiyaları keçirib. Məsələn ötən ay da Martinikada taksi sürücüləri və ticarətçilərdən sonra yük avtomobilləri (TIR) sürücüləri də bahalığa qarşı etiraz nümayişinə qoşulmuşdular. Yerli sakinlər adada yaşamağın həddən artıq çətin olmasından şikayətlənirlər. Yerli sakinlər yük avtomobilləri sürücülərinin tətilinə dəstək verərək, qiymət artımını pisləyiblər. Səhiyyə sektoru isə sentyabrın 26-dan tətillər həyata keçirib. Martinik İcraiyyə Şurasının sədri postkolonial iqtisadi sistemin sona çatdığını bildirərək, yerli istehsala üstünlük verməyin vacibliyini vurğulayıb. Martinika Həmkarlar İttifaqları sakinləri qeyri-müəyyən müddətə tətil etməyə çağırmışdı.

Bugünlərdə isə Martinikada Fransa idarəçiliyinə qarşı növbəti etirazlar baş tutub. Bununla bağlı Fransa Müstəmləkələrinin Beynəlxalq Azadlıq Cəbhəsi bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, Kanakidən sonra Martinikadakı bugünkü üsyan təsadüfi deyil. Bildirilib ki, bu iki ölkənin haqlı tələblərinə məhəl qoymayan Fransa buna yalnız repressiya və zorakılıqla cavab verir: "Bu iki ərazi iqtisadi cəhətdən çöküb və ticarət fəaliyyətlərindən əldə olunan mənfəətlər yalnız müstəmləkəçilər tərəfindən mənimsənilir. Sakit okean hövzəsində kaldoşlar və Karib dənizi sahillərində bekelərin əldə etdikləri mənfəətlər ƏDV vasitəsilə Fransa dövlətinin xəzinəsini şişirdir. Martinikanı bürüyən bugünkü sosial qəzəbin iki əsas səbəbi var - yaşamağın baha olması və yerli əhaliyə qarşı hörmətsizlik. Baha həyat, ərzaq asılılığının ifrat səviyyəsi, zəif inkişaf, aşağı gəlirlər və davamlı müstəmləkə yoxsulluğun nəticəsidir. Bundan əlavə, bu vəziyyət Martinika torpaqlarının müsadirəsi, ikili məhkəmə sistemi, gənclərin kütləvi köçü müstəmləkə siyasəti problemləri ilə bağlıdır. Bu, Martinikadakı müstəmləkə sisteminin dözülməz təzahürüdür".

### Cəbhə: Həqiqi dekolonizasiya strategiyasının həyata keçirilməsi zəruridir

Bəyanatda vurğulanıb ki, ilk dinc etirazlara Fransa dövləti bir daha misli görünməmiş zorakılıqla cavab verib və hazırda repressiyanı tətbiq etməkdə davam edir. Beynəlxalq Azadlıq Cəbhəsi keçmişə aid üsul-idarəyə qarşı çıxır. Çünki bunlar müstəmləkəçi dövlətin demokratik cəhətdən tənəzzülünü nümayiş etdirir.

Cəbhə hesab edir ki, həqiqi dekolonizasiya strategiyasının həyata keçirilməsi zəruridir: "Bu strategiya Martinika xalqına xidmət edən və onun ləyaqətli gələcəyini təmin edəcək iqtisadi sistem qurmağa yönəlməlidir. Biz heç bir respublika dəyərini təmsil etməyən və yalnız hakimiyyət sahiblərinin, onların yerli tərəfdarlarının təhlükəsizliyini təmin edən CRS8-in (kənardan gətirilən silahlı təhlükəsizlik qüvvələri) dərhal çıxarılmasını tələb edirik. Cəbhə Kanakinin institusional problemlərinin və bu iki ərazinin iqtisadi, sosial və siyasi problemlərinin demokratik həllini tələb edir. Bu həll öz müqəddəratını təyinetməyə və müstəqilliyə doğru real addım olmalıdır".

*N.BAYRAMLI*

---

**Qərbi Balkan regionunun altı ölkəsinin - Serbiya, Albaniya, Bosniya və Herseqovina, Monteneqro, Şimali Makedoniya və Kosovanın Avropa İttifaqına (Aİ) üzvlük prosesində Aİ-nin norma, standart və mexanizmlərinə uyğunlaşdırılmasını nəzərdə tutan "Berlin prosesi" çərçivəsində oktyabrın 14-də Almaniya paytaxtında Zirvə toplantısı keçirilib. Zirvə toplantısında Almaniyanın Kansleri Olaf Şolts, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, prosesdə iştirak edən altı Balkan ölkəsinin dövlət və hökumət başçıları iştirak ediblər.**

# "Berlin prosesi"...

## Verilən vəd daha 10 il uzadıldı

### Olaf Şolts Qərbi Balkan ölkələrinə hansı mesajları verdi?

Sammitdə 20 ildən artıqdır Aİ üzvü olmağı gözləyən altı ölkənin İttifaqın sıralarına daxil olması yolunda bir sıra mühüm qərarlar qəbul edilib. Belə ki, tədbirdə ortaq regional bazarla bağlı fəaliyyət planı, ali təhsilə çıxış imkanlarına dair yeni saziş imzalanıb. Fəaliyyət planı altı ölkənin ümumilikdə 17 milyon nəfərlik əhalisinin rifahının yaxşılaşdırılmasını nəzərdə tutur.

Almaniya kansleri Olaf Şolts Zirvə toplantısındakı çıxışında tədbirdə Avropa ailəsinin bir hissəsi olan Qərbi Balkan ölkələrinin əhalisinin həyatını asanlaşdıran mühüm irəliləyişlərin əldə olunmasına baxmayaraq, əvvəlki anlaşmazlıqların əməkdaşlığı hələ də çətinləşdirdiyini bildirib. Buna rəğmən Kansler altı ölkənin Aİ üzvü olmasının on ildən çox çəkməyəcəyinə ümid etdiyini diqqətə çatdırıb.

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen əvvəlki genişləmə prosesindən alınan dərslərin dərindən nəzərdən keçirildiyini deyib. O, üzvlük prosesində demokratiya və qanunun aliliyini təmin olunması ilə yanaşı, Aİ dəyərlərinin, iqtisadi inteqrasiyanın və əməkdaşlığın vacibliyini qeyd edib.

Qeyd edək ki, altı ölkənin Aİ üzvlüyünə qəbul olunmasına dair 2003-cü ildə vəd verilsə də, bu ölkələr prosesin müxtəlif mərhələlərindədir. Xüsusilə Ukrayna və Moldovanın rekord sayıla biləcək qısa müddətdə namizəd ölkə statusuna gətirilməsi Qərbi Balkan ölkələrində birmənalı qarşılanmır. Regionda etnik zəmində hələ də davam edən bəzi anlaşmazlıqlar da prosesi çətinləşdirən amillərdəndir. Olaf Şolts məhz bu baxımdan Serbiya ilə Kosovo arasında normallaşma prosesinə dair dialoqun qənaətbəxş səviyyədə olmadığını xüsusi vurğulayaraq, hər iki ölkənin götürdükləri öhdəlikləri tam şəkildə yerinə yetirilməsinin vacibliyini təkidlə qeyd edib.

Ümumiyyətlə, Aİ etimada əsaslanan genişlənmə siyasətini Avropada sülh, sabitlik, təhlükəsizlik və rifaha yatırılan geostrateji sərmayə hesab edir. Bu, ədalətli və ciddi şərtlərə və namizəd ölkələrin konkret nailiyyətlərinə əsaslanmalıdır. Bu siyasət namizəd ölkələrdən qanunun aliliyi, iqtisadiyyat, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi bir çox sahələrdə hərtərəfli islahatların həyata keçirilməsini tələb edir. Anlaşma, mehriban qonşuluq münasibətləri və regional əməkdaşlıq da böyük əhəmiyyət kəsb edir.

Aİ-yə üzvük proseduru isə belədir ki, hansısa ölkəyə namizədlik statusu verildikdən sonra strukturlaşdırılmış danışıqlar zamanı ölkə Aİ-nin qanun və standartlarının tətbiqinə hazırlaşmalıdır. Aİ-yə üzv dövlətlərinin hamısı bütün tələblərin yerinə yetirildiyini təsdiq etməlidirlər. Bütün sahələr üzrə danışıqlar başa çatdıqdan sonra Avropa Komissiyası həmin ölkənin üzv dövlət olmağa hazırlığına dair rəyini təqdim edir. Bu rəyə əsaslanaraq Aİ-yə üzv dövlətlər yekdilliklə danışıqlar prosesinin başa çatdırılmasına dair qərar verirlər. Avropa Parlamenti də bu məsələdə öz razılığını verməlidir. Bundan sonra Aİ-nin üzv dövlətlərinin hamısı və namizəd ölkə Aİ-yə üzvlüyünü təsdiq edən üzvlük müqaviləsini imzalayır və ratifikasiya edirlər.

### Aİ-yə üzv olmaq prosesində subyektiv yanaşmalar var

Əslində, bu prosedur normal görünsə də, Aİ üzvlüyünə gedən yolda ölkələr subyektiv və ədalətsiz yanaşmalarla üzləşə bilərlər. Həm namizəd statusunun verilməsində, həm də üzvlüyə namizəd kimi keçilən prosedurda Aİ rəhbərliyi və əsas ölkələr müxtəlif bəhanələrlə çıxış edə bilərlər. Türkiyənin bu prosesdə üzləşdiyi haqsızlıq deyilənlərə sübutdur. Bu baxımdan, Qərbi Balkan regionunu təmsil edən ölkələrə münasibətdə də subyektiv yanaşma təəccüblü görünmür. Nəzərə alaq ki, son illər Aİ-də təmsil olunan bəzi ölkələr təşkilatın rəhbərliyinin işindən narazılıq ifadə edirlər. Onlar Brüsselin "diqtə" siyasətini qəbul etmək istəmədikləri üçün müxtəlif təzyiqlərlə üzləşirlər. Məsələn, Macarıstanın Baş naziri Viktor Orban və Slovakiyanın Baş naziri Robert Fitsoya münasibəti xatırlamaq kifayətdir. Hazırda Aİ-yə sədrliyi həyata keçirən Macarıstana qarşı Brüssel müxtəlif əngəllər törədir, bu ölkənin sədrliyini pozmağa çalışır. Buna səbəb isə Macarıstan hökumətinin Rusiya-Ukrayna müharibəsində sülhün əldə olunmasına çalışmasıdır. Hətta Avropa Komissiyası Macarıstanın müxtəlif fondlardan almalı olduğu 6,3 milyard avronu bir müddət öncə "dondurub".

Eyni zamanda, Avropa İttifaqı Slovakiyanı qəribə ittihamla - "demokratik normaların aşınmasına görə" cəzalandırmaq təklifi üzərində işləyir. Bu addım blokun rəsmi Bratislavaya ayrılan vəsaiti saxlamasına səbəb ola bilər. Avropa Komissiyası Slovakiyanın Baş naziri Robert Fitsonun Aİ fondları ilə bağlı bəzi korrupsiya işlərinə baxan xüsusi prokurorluğu ləğv etmək addımına cavab olaraq prosedurun başlanması barədə qərar hazırlayıb. Təkliflərdən biri Komissiyanın Aİ-yə pullarını risk altında gördüyü zaman maliyyələşdirməni dondurmağa imkan verən şərtilik mexanizmindən istifadə etməsidir. Bu yolla Aİ blokun büdcəsində Slovakiyaya ayrılan 12,8 milyard avro (14,2 milyard dollar) birləşmə fondunun bir hissəsini özündə saxlaya biləcək.



### Müstəqil siyasət aparan Aİ üzvləri təzyiqlə üzləşir

Avropada belə bir böhran getdikçə artmaqdadır. Sağlam düşüncəli liderlər mövcud problemlərin səbəblərini göstərməklə yanaşı, vəziyyətdən çıxış yolunun tapılmasını vacib hesab edirlər. Belə liderlər sırasında olan Macarıstanın Baş naziri Viktor Orbanın hansı təzyiqlərlə üzlədiyi məlumdur. Slovakiyanın Baş naziri Robert Fitso da bu ilin may ayında Azərbaycana səfəri zamanı Avropa İttifaqını tənqid etmişdi. O, "Slovakiya 2020-2023-cü illərdə Avropa İttifaqı tərəfindən nə dərəcədə biganə yanaşmanın nümunəsidir" demiş və Brüsselin başqa ölkələrə "ara-sıra təlimat verməyi xoşladığını" vurğulamışdı. Fitso Bakıda Aİ-nin siyasətini tənqid edəndən qısa vaxtdan sonra, elə may ayında sui-qəsdə uğradı. Slovakiyanın Baş nazirinə atılan gülləni bir çox ekspertlər fərqli və milli marağa hədəflənən siyasi mövqeyə atılan güllə kimi dəyərləndirdilər. Bu, Qərb, Aİ-də hegemonluq edən qüvvələr tərəfindən "xəbərdarlıq" idi.

Aİ məkanında demokratiyanın təhdidlərlə üz-üzə qalmasını müxtəlif təşkilatlar da vurğulayıblar. Perspektiv üçün proqnozlar da nikbin deyil. Belə ki, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin (FRA) iyun ayında açıqladığı son hesabatında bildirilir ki, yoxsulluq səviyyəsinin artması, demokratiyaya hücumlar, irqçilik və ksenofobiya, eləcə də miqrasiya problemləri Avropa İttifaqında fundamental hüquqlar üçün əsas təhdidlərdir. Əlbəttə ki, bu kimi hallar Qərbi Balkan egionunu təmsil edən altı ölkənin Aİ-yə üzvlüyünə əsas əngəllər sırasındadır. Nəzərə alaq ki, bloka üzvlüklə bağlı konkret vaxt məhdudiyyəti yoxdur. Bu isə o deməkdir ki, Aİ rəhbərliyi və əsas ölkələr (xüsusilə, Almaniya və Fransa) müxtəlif bəhanələrlə hansısa dövlətin üzvlüyünü sonsuza qədər uzada bilər. Ona görə də, Qərbi Balkan regionunun altı dövlətini bundan sonra da çətin sınaqlar gözləyir. 21 ildir ki, başlayan prosesin 10 il ərzində müsbət sonluqla bitəcəyi isə sual altındadır.

*N.BAYRAMLI*

---

# Vatikanın Ukraynada sülh missiyasının rəhbəri Moskvada...



Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin Ukraynada sülh missiyasının rəhbəri kimi təyin etdiyi İtaliya Yepiskopları Konfransının prezidenti, kardinal Matteo Zuppi Rusiyaya səfər edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müqəddəs Taxt-Tacın mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, Matteo Zuppinin ukraynalı azyaşlıların geri qaytarılması, əsirlərin mübadiləsi və sülhə nail edilməsi üçün Moskvada bir sıra görüşləri olub. Kardinalın Rusiyanın xarici işlər naziri Sergey Lavrovla keçirdiyi görüşdə münaqişə kontekstində humanitar sahədə əməkdaşlıq və beynəlxalq səhnədəki digər məsələlər müzakirə olunub. O, həmçinin Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill, Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov və Rusiya Prezidenti yanında uşaq haqları üzrə səlahiyyətli nümayəndə Mariya Lvova-Belova ilə görüşlər keçirib.

Bu, Müqəddəs Taxt-Tacın humanitar təşəbbüsünün bir hissəsi kimi Matteo Zuppinin Rusiyaya ikinci səfəridir. O, 2023-cü il iyunun 28-29-da Moskvaya, daha sonra missiyasının tərkib hissəsi olaraq Kiyevə, Vaşinqtona və Pekinə səfərlər edib.

# BVF: Bu il qlobal dövlət borcu 100 trilyon dolları ötəcək

2024-cü ildə bütün ölkələrin ümumi dövlət borcunun 100 trilyon dolları ötəcəyi gözlənilir ki, bu da qlobal ümumi daxili məhsulun (ÜDM) təxminən 93 faizini təşkil edəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Valyuta Fondunun (BVF) hesabatında deyilir. Hesabata əsasən, qlobal dövlət borcu onilliyin sonunadək artmaqda davam edərək ÜDM-in 100 faizinə çatacaq.

Fondun mütəxəssisləri qeyd ediblər ki, ölkələrin təxminən üçdə ikisində borcun sabitləşməsi və ya azalması proqnozlaşdırılsa da, pandemiyadan əvvəl gözləniləndən xeyli yüksək olaraq qalacaq.

"Borcun sabitləşməsi ilə bağlı proqnozu olmayan ölkələr dünya borcunun yarıdan çoxunu və qlobal ÜDM-in təxminən üçdə ikisini təşkil edir. Gələcək borc göstəricilərinin hazırda proqnozlaşdırılandan daha yüksək olacağını söyləmək üçün yetərincə əsaslar var", - deyə hesabatda vurğulanır.

BVF ayrı-ayrı ölkələr üçün dövlət borcunun göstəricilərini və ya proqnozlarını təqdim etməyib.



Fondun məlumatına görə, 2023-cü ildə bütün ölkələrin dövlət borcunun səviyyəsi təxminən iki faiz yüksələrək ÜDM-in 93,2 faizinə çatıb. Qlobal borc artımında dünyanın iki ən böyük iqtisadiyyatı olan ABŞ və Çin liderlik ediblər. Onların borcu müvafiq olaraq ÜDM-in iki və altı faizindən çox artıb.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Aclığa son...

Keyfiyyətli və təhlükəsiz qida ilə təmin olunmaq hər birimizin istəyidir. Bu, daha yaxşı gələcək üçün vacib şərtlərdən sayılır. Bildiyimiz kimi, aclıq insan potensialını məhdudlaşdırır, nəticədə dayanıqlı inkişafın digər məqsədlərinə nail olmanı əngəlləyir. Təəssüf ki, bu gün bir çox ölkədə aclıqdan əziyyət çəkən çoxsaylı insan var. Bu hala səbəb olan əsas amillərdən biri isə qida çatışmazlığıdır.

Qida çatışmazlığı məhsul yığımında səmərəsiz üsullar və ərzaq itkiləri kimi müxtəlif amillərdən asılıdır. Müharibələr də qida məhsullarına çıxışa və əkin sahələrinə mənfi təsir göstərir.

Məlumdur ki, son illər bütün dünya bir çox sayda insanın təsirlənməsi ilə nəticələnən qlobal böhranlarla üzləşdi. Koronavirus pandemiyası, qida istehsalına təsir edən ekstremal hava hadisələri hər bir ölkəyə təsir etdi. Bu müddət ərzində təhlükəsiz, əlverişli və sağlam qidaya çıxışın olmasını təmin etmək üçün tədbirlərin görülməsinin vacibliyi sübut olundu. Ona görə də bu məqsədə çatmaq üçün qlobal cəmiyyət kimi birgə hərəkət etməliyik. Aclıq, qida çatışmazlığı, ərzaq təhlükəsizliyi və qıtlıq riskinin mövcud olduğu ölkələrə dəstək olmalı, onlara ərzaq sistemlərinin inkişaf etdirilməsinə kömək göstərməliyik.

**"Daha yaxşı gələcək üçün qida hüququ"**

Yeri gəlmişkən, bu gün "Ümumdünya Qida Günü" kimi qeyd edilir. 150-dən çox ölkə bu əlamətdar tarixi qeyd edir. 16 oktyabr 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) təsis olunub. Təşkilat hesab edir ki, dünya sakinləri öz səylərini birləşdirsə, 2030-cu ilə qədər aclığı tamamilə aradan qaldırmaq mümkündür.

Qida günü hər il bir mövzuya həsr olunur. FAO bu il "Ümumdünya Qida Günü"nün şüarını "Daha yaxşı həyat və daha yaxşı gələcək üçün qida hüququ" olaraq təyin edib.

**828 milyon insan aclıqla mübarizə aparır**

Qida günü ilə bağlı FAO-nun rəsmi saytında qeyd olunub ki, bu gün dünyada sağlam qidaya sahib olmayan 3,1 milyard insan və aclıqla mübarizə aparan 828 milyon insan var. Məhz 16 oktyabr həmin insanlar üçün bütün bacardıqlarımızı səfərbər etmək günüdür: "Birlikdə çalışıb səylərimizi birləşdirərək dünya miqyasında, eləcə də Avropa və Mərkəzi Asiyada insan tələfatına səbəb olan, uşaqlarımızın sağlam gələcəyini riskə atan aclığa və qida çatışmazlığına son qoymaq üçün gecikmədən addımlar atmalıyıq!.

Daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və hamı üçün daha yaxşı həyat təşəbbüsü qida sistemlərinin səmərəli, dayanıqlı olmasına töhfə verəcək. Aqroərzaq sistemlərimiz ədalətli və güclü gələcək üçün böyük potensiala malikdir. Çünki onlar həyatımızın və iqtisadiyyatımızın bir çox sahələri ilə - kənd təsərrüfatından tutmuş təbii ehtiyatlara, enerjiyə, səhiyyəyə qədər bir-biri ilə bağlıdır.

Cari ilki Ümumdünya Qida Gününün bu səyləri sürətləndirərək, heç kimin kənarda qalmadığı, hər kəsin sağlam və faydalı qidaya çıxışı olduğu gələcəyə addım atmasına dəstək olacağına ümid edirik!".

**Aclığa son qoymaq üçün nə qədər vəsait tələb olunur?**

FAO-nun məlumatına görə, qiymətləndirməyə əsasən, 2030-cu ilədək hər ilə orta hesabla 267 milyard ABŞ dolları həcmində əlavə vəsait tələb olunur. İmkansız və yoxsulların normal həyat tərzi və qidaya çıxışını təmin etmək üçün kəndlərə və şəhərlərə, həmçinin sosial müdafiə sahəsinə investisiyalar tələb olunacaq.

*Yeganə BAYRAMOVA*

# Mövsümi xəstəliklər...




Havaların soyuması, yağan yağışlar payızın nəfəsini hiss etdirir. Bu fəsli sevənlər çox olsa da, payızın gəlişi ilə bir sıra xəstəliklərin aktivləşməsinə şahid oluruq. Xüsusən də mədə-bağırsaq və müxtəlif infeksion xəstəliklər, soyuqdəymə, revmatizm və başqa xəstəliklər baş qaldırır. Belə havalarda isə hər bir detala, geyimə, qidaya xüsusi diqqət etmək lazım gəlir.

Son günlər azyaşlı uşaqlar və böyüklər arasında yüksək hərarət, öskürək, qusma, ishal kimi hallar günlərlə davam edir. Bəziləri iddia edir ki, bu, koronavirusun yeni ştammıdır. Yeni bir virusun yayıldığını ehtimal edənlər də var.

Xəstəlik bəzən boğulma, xırıltılı səslə müşahidə olunur. Hərarətsalıcılar və digər preparatlar yüksək temperaturun enməsinə, ümumiyyətlə, insanın sağalmasına kömək etmir. Son həftələrdə poliklinika və xəstəxanalara məhz bu əlamətlərlə müraciət edənlərin də sayı artıb.

**Orqanizmin keçirdiyi bioloji stress...**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən infeksionist-həkim Mərdan Əliyev payız aylarının xüsusilə də mədə-bağırsaq xəstəliklərinin fəallaşması, həmçinin mədə xorasının kənkinləşməsi ilə müşahidə olunduğunu bildirib: "Xüsusilə sentyabr-oktyabr aylarında havada olan təlatümlər, dəyişmələr insanların adaptasiyasını ortaya çıxaran situasiyalar baş verir. Payız vaxtı mədə-bağırsaq xəstəliklərinin fəallaşması, mədə xorasının kənkinləşməsi müşahidə olunur. Bu, əslində orqanizmin keçirdiyi bioloji stressdir. Yeni dövrə adaptasiya olunur və həmin adaptasiya prosesləri özünü bəzi xəstəliklərinin kəskinləşməsi ilə ortaya qoyur.

Payız vaxtı havada olan kəskin dəyişmələr zamanı insanların geyimlərini düzgün seçməməsi də soyuqdəyməyə səbəb olur. Ən əsası qan təzyiqi olan, bronxial astması olan, şəkərli diabeti olan, bəzi yanaşı ağır xəstəlikləri olanlar belə fəsil dəyişmələrində mütləq öz həkimləri ilə məsləhətləşməlidirlər. Çünki aparılan müşahidələr göstərir ki, müəyyən xəstəliklərin ağırlaşmalarına məhz fəsil dəyişmələrində daha çox təsadüf olunur. Nəzərə alaq ki, payız qışa doğru gedir və soyuq havalar başlayır. Buna görə də soyuqdəymələr baş verir. İnsanlar bunu nəzərə almalıdır və öz sağlamlıqlarının qayğısına qalmalıdırlar. İdmanla məşğul olmalı, qidalanma tərzini düzgün seçməli, təmiz havada çox gəzməlidirlər. Geyim forması da düzgün seçilməlidir. Bütün bunlar şərtdir".

**Bədəni qışa hazırlamaq lazımdır**

Payız mövsümündə qidalanmaya gəlincə, infeksionist hər mövsümün özünə uyğun qidası olduğunu qeyd edib: "İnsanlar bəzən süni qidalara və yaxud saxlanılan və mövsümə aid olmayan qidalara üstünlük verirlər. Texniki imkanlar artdıqca ərzaqları il boyunca saxlamaq da olur. Amma düşünürəm ki, mövsümi qidalardan istifadə etmək lazımdır. Payız mövsümünün də öz meyvələri, vitaminli qidaları var ki, onlardan istifadə etmək lazımdır. Qışda tədricən vitamin çatışmazlığı olur. Ona görə də indi bol-bol vitaminli qidalar qəbul etmək lazımdır ki, bədən qışa hazır olsun".

**Planlı qidalanma vacibdir!**

Həkimin sözlərinə görə, payız aylarında immuniteti qoruyaraq, daha da gücləndirmək üçün təsiredici vasitələrdən biri yetərincə və planlı qidalanmaqdır: "Xüsusilə, infeksiyalara qarşı daha həssas olan uşaqlar, hamilə qadınlar, süd verən analar və yaşlılar üçün düzgün qidalanma daha çox önəmlidir. Bədənin vitamin və mineral ehtiyacını ödəmək lazımdır. Düzgün qidalanma, gün ərzində hər növ qidadan kifayət qədər qəbul etməklə mümkündür. Beləliklə, ehtiyacımız olan zülal, karbohidrat, yağ, vitamin və mineralları da qəbul etmiş oluruq".

**Zamanında tədbir görülməsə...**

İnfeksionist qeyd edib ki, payız aylarında insan sağlamlığının birinci düşməni nəfəs yollarının infeksiyasıdır. Bu infeksiyalar xüsusilə, uşaqlara, yaşlılara və hamilə qadınlara daha pis təsir edir: "Belə halda qrip, faringit, sinuzit, orta qulaq iltihabı, bronxit, haymorit kimi xəstəliklərin yayılma riski də artır. Payızda şikayətlərin bir qismi də kəskin respirator virus xəstəlikləri ilə bağlı olur. Bu, iki yüzə qədər fərqli törədicilər tərəfindən baş verə bilər. Xəstəlik halsızlıq, burunaxma, boğazda ağrı, əzginlik, iştahsızlıq və hərarət şəklində özünü büruzə verir. Əgər zamanında düzgün və lazımi tədbirlər görülməsə, sətəlcəm, otit və sinusit kimi ağırlaşmalara gətirib çıxara bilər".

*Yeganə BAYRAMOVA*

## *İdman*

## Milli futbol liqaları FIFA-nı məhkəməyə verib

Avropanın 37 milli futbol liqası Beynəlxalq Peşəkar Futbolçular Assosiasiyaları Federasiyası (FIFPro) ilə birlikdə FIFA-nı Avropa Məhkəməsinə şikayət edib.

AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, buna ali futbol qurumunun oyunların sayını artırmaq üçün verdiyi birtərəfli qərarlar səbəb olub.

Şikayət ərizəsində FIFA-nın turnir təşkilatçısı kimi səlahiyyətlərindən sui-istifadə etdiyi və futbolçuların rifahı ilə maraqlanmadığı iddia olunub.

Milli futbol liqalarının və FIFPro-nun əsas məqsədi futbolçuları ildə üç-dörd həftəlik məcburi istirahətə göndərməkdir.




## Avropa Kubokunun qalibi olan "Azərreyl"in qadın və kişilərdən ibarət komandaları Vətənə qayıdıblar

Fransanın Monpelye şəhərində keçirilmiş çimərlik voleybolu üzrə Avropa Kubokunun qalibi olan "Azərreyl"in qadın və kişilərdən ibarət komandaları Vətənə qayıdıblar.

AZƏRTAC xəbər verir ki, onları Azərbaycan Voleybol Federasiyasının nümayəndələri, media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

16 klubun mübarizə apardığı turnirdə iştirak edən "Azərreyl"in qadın və kişilərdən ibarət komandaları bütün rəqiblərinə qalib gəliblər. Qadın voleybolçularımız qrup mərhələsində Avstriyanın "Bergstrand" və Sloveniyanın "BVC Ludus", 1/4 finalda Türkiyənin "Spor Lisesi Ihtisas Kulübü", yarımfinalda Macarıstanın "Edra Tata" klubuna qalib gələrək qələbə seriyasını finalda da davam etdiriblər.

Komanda həlledici mərhələdə Ukraynanın "Sunrise Beach Spors Academy" kollektivi ilə üz-üzə gəlib. Gərgin mübarizədən sonra rəqibini 15:12 hesabı ilə üstələyən təmsilçimiz Avropa Kubokunun qalibi olub.

Kişilərdən ibarət komandamız isə qrup mərhələsində Fransanın "Re Beach" və Sloveniyanın "BVC Ludus", 1/4 finalda Ukraynanın "Sunrise Beach Sports Academy", yarımfinalda Fransanın "Montpellier Beach Volley" komandasını, həlledici görüşdə isə İspaniyanın "CVP Poniente Benidorm Alicante" komandasını məğlubiyyətə uğradaraq turniri birinciliklə başa vurub.




## "Azərreyl" klubunun prezidenti: Əldə olunan nəticə Azərbaycan voleybolu üçün böyük uğurdur

"Azərreyl"in əldə etdiyi nəticə Azərbaycan voleybolu üçün böyük uğurdur".

AZƏRTAC xəbər verir ki, bu sözləri Fransanın Monpelye şəhərində keçirilmiş çimərlik voleybolu üzrə Avropa Kubokunun qalibi olan "Azərreyl"in qadın və kişilərdən ibarət komandalarının prezidenti Ramin Əzizov jurnalistlərə açıqlamasında deyib.

O, yarışın özləri üçün çətin keçdiyini bildirib: "Tarixi nəticə qazandıq. Xalqımızın dəstəyini Fransada da hiss edirdik. Klub olaraq çox xoşbəxtik. Bundan sonra da öz uğurlarımızla Azərbaycan voleyboluna töhfə vermək niyyətindəyik".

Qeyd edək ki, "Azərreyl"in qadın komandası həlledici mərhələdə Ukraynanın "Sunrise Beach Spors Academy"i, kişilərdən ibarət kollektiv isə İspaniyanın "CVP Poniente Benidorm Alicante" klubuna qalib gəlib.




## Azərbaycan savatçıları dünya çempionatından 2 medalla dönüblər

Sloveniyanın Podçetrtek şəhərində savatın assault növü üzrə böyüklər arasında dünya çempionatı keçirilib. 36 ölkədən idmançıların iştirak etdiyi çempionatda Azərbaycan millisi 5 savatçı ilə təmsil olunub.

AZƏRTAC-ın bölgə müxbirinin verdiyi məlumata görə, kişilər arasında Azərbaycan Savat Federasiyasının qərb bölgəsi üzrə təmsilçisi Beyrək Bağırov (85 kiloqram), qadınların mübarizəsində isə Tutu İsmayılova (48 kiloqram) medal qazanıblar. Tutu İsmayılova C qrupunda Ukrayna, Yaponiya və Avstriya idmançıları ilə mübarizədə qalib gələrək qrupu 9 xalla başa vurub və yarımfinala yüksəlib. Finala gedən yolda Fransa təmsilçisinə 1:2 hesabı ilə məğlub olan idmançı bürünc medala sahib çıxıb. Beyrək Bağırov isə C qrupunda Kanada, İtaliya və Mavritaniya idmançılarına qalib gələrək, 9 xalla yarımfinala çıxıb. Bu mərhələdə Fransa idmançısına uduzub və bürünc medalla kifayətlənib.

Bu, millinin tarixində savatın assault növü üzrə böyüklər arasında dünya çempionatında qazanılan ilk medallardır.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2393**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli